

Xeyirxah insan, görkəmli yazıçı, böyük alim - Mir Cəlal Paşayev

6

Səs

№ 072 (6513) 26 aprel 2022-ci il. Qiymətı 60 qəpik

# QARABAĞIN DÖYÜNƏN ÜRƏYİ ŞUŞA HƏMRƏYLİK MƏKANI



4

"Azərbaycanla Tacikistan arasında əlaqələr hərtərəfli inkişaf edir"



7



14

Xatirinizdədirsə ötən ilin sonlarında, dekabr ayında Fransa prezidentliyinə namizədliyini irəli sürmüş fransalı siyasətçi Valeri Pekress Qarabağa qanunsuz səfər etmişdi. Məhz onda rəsmi Bakı sərt şəkildə Pekressin avantüraçı...



# Qarabağda növbəti təxribata cəhd: erməni-fransız planları RSK kontekstində

## Ceyhun Bayramov və Ararat Mirzoyan arasında telefon danışığı olub

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyindən SİA-ya verilən...



3

## Məktəblərdə rüşvət hallarına nə zaman SON QOYULACAQ?

Təhsil eksperti danışdı



16

## GMOlar

13



İllərdir dünyada bir məsələ var, ölüm, ya qalım məsələsidir. Rəhmətlik Molla Nəsrəddin demişkən, bu məsələ təzə...



## "Ermənistan ən təsirli və səmərəli cavab alacağına əmin olmalıdır"

9

"Ötən gün Ermənistan tərəfinin təxribatlara əl ata biləcəyi barədə saytların birində məqaləm dərc...



## Aleksey Fenenko: "Putin Paşinyanı üçtərəfli razılaşmaları yerinə yetirməyə məcbur edir"

15

"Rusiya-Ermənistan bəyanatında biolaboratoriyalar və üçüncü ölkələrin orada fəaliyyət göstərməsinin...

# İsrail Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev İsrailin maliyyə nazirini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də İsrailin maliyyə naziri Aviqdor Libermanı qəbul edib. Görüşdə Azərbaycan ilə İsrail arasında bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyi vurğulandı, son dövrlərdə qarşılıqlı səfərlərin intensivliyinin və dinamikasının artması, həmçinin İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsi və Turizm Mərkəzinin açılması müsbət amil kimi qiymətləndirildi.

Söhbət zamanı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Gəncə Şəhər Məhkəməsinin təşkili haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev Emmanuel Makronu yenidən Fransa Prezidenti seçilməsi münasibətilə təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Emmanuel Makronu Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib. AZƏRTAC xəbər verir ki, təbrikdə iqtisadiyyat, energetika, o cümlədən neft-qaz yataqlarının istismarı, mədəniyyət, təhsil və qarşılıqlı maraq doğuran bir sıra digər sahələrdə uğurlu əməkdaşlığın Azərbaycan-Fransa əlaqələrini şərtləndirən başlıca amillərdən olduğu vurğulanır. Bu əməkdaşlığın xalqlarımızın mənafeyi naminə birgə səylərlə davam etdiriləcəyinə inam ifadə olunur.

Təbrik məktubunda daha sonra deyilir: "Ümidvarıq ki, hazırda Avropa İttifaqına sədrlik edən Fransa Respublikası Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunması məqsədilə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, tərəfimizdən təqdim edilən beş prinsip əsasında ölkələr arasında sülh müqaviləsinin hazırlanması prosesinə öz dəstəyini verəcəkdir".

Dövlətimizin başçısı fransalı həmkarına ən xoş arzularımı yetirib, ona qarşıdakı fəaliyyətində müvəffəqiyyətlər arzulayıb.



# Prezident İlham Əliyev Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib. Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və demarkasiyası, Azərbaycan tərəfinin təqdim etdiyi 5 prinsip əsasında iki ölkə arasında sülh müqaviləsinin hazırlanması məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev sülh müqaviləsinin hazırlanması üzrə Azərbaycan nümayəndə heyətinin və iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan milli komissiyasının tərkibinin müəyyən edildiyini vurğuladı, ölkəmizin Ermənistanla danışıqlara hazır olduğunu qeyd etdi. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# "Əl Ərəbiyə" telekanalı: "Azərbaycan Ermənistana sülh danışıqlarını çox uzatmamağı təklif edib"

**Ərəb dünyasının nüfuzlu telekanalı "Əl Ərəbiyə"nin saytında "Azərbaycan Ermənistana sülh danışıqlarını çox uzatmamağı təklif edib və özünün sərt şərtlərini bildirib" sərlövhəli məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayındakı nitqindən əsas məqamların yer aldığı məqalədə dövlətimizin başçısının Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını bəyan etdiyi barədə fikirləri vurğulanıb. Agentliklərin xəbərlərinə istinadla qeyd olunub ki, Prezident İlham Əliyev sülh müqaviləsinin imzalanması üçün Ermənistanın bunu rəsmən elan etməsi və Azərbaycana qarşı hər hansı ərazi iddialarından əl çəkməsi şərtlərini irəli sürüb. Eyni zamanda, dövlətimizin başçısı Ermənistanda hərdən baş qaldıran revanşist qüvvələrə xəbərdarlıq edərək söyləyib ki, bu, ermənilərin son şansıdır və onların bundan imtina edəcəyi təqdirdə Azərbaycan Ermənistanın ərazi bütövlüyünü tanımayacaq.

Məqalədə Ermənistanın baş naziri Nikol Paşinyanın son zamanlar səsləndirdiyi ziddiyyətli bəyanatlar, regionda yaranmış yeni reallıq barədə də məlumat verilib.



# İLHAM ƏLİYEV:
## “Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın”




***Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizminin məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın.***

AZƏRTAC xəbər verir ki, ”İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 117-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2022-ci il yanvarın 30-da Gəncədə Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibəsində söyləyib.

Çoxcildliyin bu kitabındakı materiallar 2022-ci ilin yanvar-fevral aylarını əhatə edir.

Kitaba Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri, Prezident Vladimir Putin ilə görüşü haqqında məlumat, iki ölkənin liderlərinin imzaladığı ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”nin, Rusiya və Azərbaycan prezidentlərinin mətbuata bəyanatlarla çıxışlarının mətnləri, dövlətimizin başçısının TASS agentliyinin mənzil-qərargahında ”Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında” adlı ekspozisiya ilə tanışlığı, həmçinin səfər çərçivəsində digər tədbirlər barədə informasiyalar daxil edilib.

Prezident İlham Əliyevin Ukraynaya işgüzar səfəri, Prezident Volodimir Zelenski ilə görüşünə və sənədlərin imzalanmasına dair materiallar, mətbuata bəyanatlar da bu nəşrdə yer alıb.

Regionların inkişafını daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev 2022-ci il yanvarın 30-da Gəncəyə səfər edib, Dövlət Dram Teatrının yeni binasının, Gəncə regional ”ASAN xidmət” Mərkəzinin açılışlarında, Gəncə Memorial Kompleksinin təməlqoyma mərasimində və digər tədbirlərdə iştirak edib. Bütün bunlar haqqında xəbərlər və dövlətimizin başçısının Gəncədə AZƏRTAC-a müsahibəsinin mətni, eləcə də fevralın 13-də Ağdam və Ağcabədi rayonlarına səfəri ilə bağlı geniş informasiyalar yeni kitabda toplanıb.

Oxucu 117-ci cilddə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş və ”Rossiya 24” telekanalında yayımlanmış ”Hakimiyyət formulu” verilişinin mətni ilə də tanış ola bilər.

Həmçinin yeni kitaba dövlətimizin başçısının Səudiyyə Ərəbistanı Krallığının ”ACWA Power” şirkətinin ölkəmizdə inşa edəcəyi ”Xızı-Abşeron” külək elektrik stansiyasının təməlqoyma mərasimində, ”Cənub Qaz Dəhlizi” məşvərət şurası çərçivəsində nazirlərin VIII toplantısında, Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda və digər tədbirlərdə çıxışlarının, habelə ”Qobu” Enerji Qovşağının açılışından sonra AZƏRTAC-a müsahibəsinin mətnləri daxil edilib.

Nəşrdə Azərbaycan Prezidentinin Türkiyə Prezidentinə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə, İki Müqəddəs Ocağın xadimi, Səudiyyə Ərəbistanı Kralına həmin ölkələrlə respublikamız arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ünvanlandığı məktublar da verilib. ”Azərnəşr” tərəfindən buraxılan çoxcildliyin 117-ci kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.



## “Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*

***Prezident İlham Əliyev dünən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizin Rusiyanın ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti ilə uzun illər səmərəli əməkdaşlıq həyata keçirdiyi bildirildi.

Söhbət zamanı ölkəmizlə Həştərxan vilayəti arasında ticari-iqtisadi, nəqliyyat, tranzit, gəmiqayırma, limanlararası əlaqələr sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Bakıda Həştərxan İş Mərkəzinin, Həştərxanda isə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən Azərbaycan İş Mərkəzinin fəaliyyət göstərməsinin önəmi qeyd olundu.

Görüşdə humanitar sahədə əməkdaşlıq məsələlərinə toxunuldu, Heydər Əliyev Fondunun Həştərxan vilayətində həyata keçirdiyi mühüm layihələr məmnunluqla xatırlandı. Həştərxanda 10 ildən çoxdur ki, fəaliyyət göstərən Heydər Əliyev adına məktəbin humanitar sahədə əlaqələrimizin inkişafına töhfə verdiyi vurğulandı.

Söhbət zamanı İqor Babuşkinin səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

## Ceyhun Bayramov və Ararat Mirzoyan arasında telefon danışığı olub




Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, nazirlər, iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq fikir mübadiləsi aparıblar. Tərəflər, Birgə Sərhəd Komissiyasının iştirakçılarının parametrləri barədə razılığa gəliblər.

Birgə Sərhəd Komissiyasının, habelə sülh müqaviləsinin işlənib hazırlanması ilə bağlı işçi qrupunun görüşlərinin yaxın zamanlarda təşkil olunmasına dair razılıq əldə olunub. Tərəflər, həmçinin humanitar sahədə addımların davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Səfir:
## “Fransa Azərbaycan və Ermənistan liderlərinin son vaxtlar göstərdiyi cəsarətli səyləri tam dəstəkləyir”



Yaxın gələcəkdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının real ehtimalı var. Bu, hər iki ölkənin liderləri tərəfindən müzakirə edilib və əsas prinsiplərlə bağlı məktub mübadiləsi aparılıb. Rəsmi təmaslar baş tutub və vətəndaş cəmiyyətinin nümayəndələri də bir sıra görüşlər keçiriblər. Bu proses bizə təmkinlə nikbin olmağa imkan verir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Fransanın Azərbaycandakı səfiri Zakari Qros bildirib. Səfir qeyd edib: ”Bu o demək deyil ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması yaxındır. Buna nail olmaq çətin olacaq, maneələr olacaq. Rəsmi Bakı kommunikasiyaların bərpa olunması, sərhədlərin delimitasiyası, ərazi bütövlüyü və suverenlik prinsiplərinin tanınması kimi konkret məsələlərdə irəliləyiş görmək istəyir. Ermənistan rəsmiləri də onların ən ümdə maraqlarının, o cümlədən Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqlarının nəzərə alınmasından heç də az narahat deyillər”.

Hər iki tərəfdən sülhün əleyhdarlarının olacağına şübhə olmadığını deyən Zakari Qros prosesə xələl gətirə biləcək insidentlər də ola biləcəyini istisna etməyib. Deyib ki, anlaşılmazlıqlar inamsızlığı artıra və əldə olunmuş nailiyyətləri təhlükə altında qoya bilər. Buna görə də Azərbaycan və Ermənistandakı bütün xoşməramlı insanların sülh prosesini dəstəkləməsi vacibdir.

Sülh prosesində vətəndaş cəmiyyətinin mühüm rol oynaya biləcəyini qeyd edən Fransa səfiri bildirib ki, ziyalılar, mütəfəkkirlər, rəssamlar, müəlliflər, aktyorlar, iş adamları, sadə vətəndaşlar sülh naminə çıxış edərək prosesi gücləndirə bilərlər. Sülhün əldə olunmasında xüsusilə qadınların beynəlxalq səviyyədə qəbul edilmiş mühüm rolu var. ”Fransa Avropa İttifaqı ilə birlikdə Azərbaycan və Ermənistan liderlərinin son vaxtlar göstərdiyi cəsarətli səyləri tam dəstəkləyir və sülhün bərqərar olması prosesini müşayiət etməyə hazırdır”, - deyə Zakari Qros vurğulayıb.

# QARABAĞIN DÖYÜNƏN ÜRƏYİ ŞUŞA

## HƏMRƏYLİK MƏKANI



Bəlli olduğu kimi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən işğalından azad etdiyi, Qarabağın döyünən ürəyi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirak etdiyi Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı öz işinə başladı. Qeyd edək ki, Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad edilməsindən sonra ilk böyük görüşüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləyib və bildirib ki, tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır". Dövlətimizin başçısı qurultay iştirakçılarının Zəfər yolu ilə gəldiyini deyib: "Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir".

bax belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bu, bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir". Azərbaycan Prezidenti çıxışı zamanı Qarabağ münaqişəsinin həllinin başlıca vəzifə olduğunu söylədi: "Qarabağ münaqişəsinin həll edilməsi mənim üçün Prezident kimi başlıca vəzifə idi. Prezident seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir",-deyən dövlət başçısı bütün qüvvələrin bu vəzifəyə səfərbər edildiyini vurğulayıb: "Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, həm də dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, hər birimiz hər gün öz əməyimizlə, işimizlə, hərə öz yerində bu müqəddəs günü yaxınlaşdırmalıyıq. Torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi".

### "BUNDAN SONRA AZƏRBAYCAN XALQI MÜZƏFFƏR XALQ KİMİ YAŞAYACAQ"

Dövlət başçısı çıxışı zamanı qəhrəman Azərbaycan xalqının bu torpaqda müzəffər xalq kimi əbədi yaşayacağını qurultay iştirakçılarına bildirdi: "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün böyük xoşbəxtlikdir".

"Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarısında misilsiz xidmətlər göstərmişlər",- deyən dövlət başçısı bu qələbəni müstəqillik dövründə yetişən gənclər bəxş etdiyini vurğuladı: "Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər".

### "ƏMİNƏM Kİ, QURULTAY İŞTİRAKÇILARI QƏDİM ŞUŞAYA BÖYÜK HƏVƏSLƏ GƏLİBLƏR"

"Bura gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Ulu öndər Heydər Əliyev həmin qurultayda dərin məzmunlu çıxışında Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmiş və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altındakı torpaqlar azad olunacaq və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaq",-deyən Prezident İlham Əliyev Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdi: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını

### "BİZ BÜTÜN DÜNYAYA SÜBUT ETDİK Kİ, AZƏRBAYCAN XALQI BÖYÜK XALQDIR"

**İlham ƏLİYEV: "Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir"**

Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı bildirib ki, Azərbaycan xalqı həmişə böyük, güclü xalq olub: "Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq dayanırdı. Biz buna öz gücümüzlə nail olduq".

Dövlətimizin başçısı qeyd edib ki, məhz buna görə ordu quruculuğu sürətlə aparılıb, Azərbaycan müasir ordu yaradıb, məhz buna görə gənc nəsil vətənpərvərlik və düşmənə nifrət ruhunda tərbiyə olunurdu: "Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi. Bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi".

"Otuz ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi",-deyən Azərbaycan Prezidenti bildirib ki, müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedərək qələbə qazandıq: "Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq. Öldü var, döndü yoxdur və müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, Vətən uğrunda bilərəkdən ölümə gedirdilər".

### "MÜHARİBƏ BAŞA ÇATSA DA, BİZƏ QARŞI OLAN ƏRAZİ İDDİALARI HƏLƏ Kİ, BAŞA ÇATMAYIB"

Dövlət başçısı çıxışı zamanı xüsusi olaraq vurğulayıb ki, bu qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi sayəsində əldə olunduğunu deyib: "Biz bütün dünyaya sübut etdik ki, 21-ci əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır. Cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edildi. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi".

Dövlətimizin başçısı xatırladıb ki, Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü. Onların özlərinin etirafına görə, on min fərari olub. Azərbaycan Ordusunda isə bir dənə də fərari olmayıb: "Mən bilirəm ki, siz və sizin kimi milyonlarla xaricdə yaşayan azərbaycanlı hərə öz ölkəsində müharibənin gedişatını yaxından izləyirdi. Eyni zamanda, öz çıxışlarınızda, şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründəki göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik". Azərbaycan Prezidenti 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardığını deyib: "Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu",-deyən dövlət başçısı qurultayda çıxışı zamanı bildirib ki, "dəmir yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa etdik: "Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət, öz sözünü deyib. Nəhayət, "dəmir yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edib. Ona görə, bax, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun".

### "MƏN ÇOX ŞADAM Kİ, DİASPOR TƏŞKİLATLARIMIZ AZƏRBAYCAN İLƏ DAİM TƏMASDADIRLAR"

"Mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar. Müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir",- deyən Prezident xaricdə yaşayan azərbaycanlıların öz tarixi Vətəni ilə sıx bağlı olmağını bildirib: "Əlbəttə, biz hamımız istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. Bu gün biz qurultayı Şuşada keçiririk. Azad edilmiş ərazilər on min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq".

Prezident İlham Əliyev çıxışı zamanı bütün nəsillərin öz mədəniyyətinə bağlı olmasını vurğuladı: "Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil",-deyən dövlət başçısı diqqətə çatdırıb ki, xaricdə yaşayan soydaşlarımız, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq kifayət deyil: "Ona görə biz Azərbaycan məktəblərinin açılmasına da hər zaman kömək göstərməyə hazırıq. Əslində bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas faktordur. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir".

Ardı Səh. 5

# QARABAĞIN DÖYÜNƏN ÜRƏYİ ŞUŞA

## HƏMRƏYLİK MƏKANI

Əvvəli Səh. 4

### "MİNSK QRUPU MÜNAQİŞƏNİ HƏLL ETMƏK ÜÇÜN YOX, İŞĞALI ƏBƏDİLƏŞDİRMƏK ÜÇÜN YARADILMIŞDI"

Dövlət başçısı nitqi zamanı 1992-ci ildən bu məsələni həll etmək üçün mandat almış Minsk qrupunun heç bir nəticə əldə etmədiyini və artıq bu qurumun iflic olduğunu deyib: "Əfsuslar olsun ki, bu gün Ermənistanda hələ də yüksək vəzifəli şəxslər Minsk qrupu haqqında sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olub".

Dövlətimizin başçısı deyib ki, 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış Minsk qrupu faktiki olaraq heç bir nəticə əldə etməyib. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, o, məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdı. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qruplarının təsiri çoxdur. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmayıb.

"Şuşada keçirilən Qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi - mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün". Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib. Ancaq bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq. Bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

### "BU GÜN AZƏRBAYCAN ORDUSU İSTƏNİLƏN VƏZİFƏNİ İCRA EDƏ BİLƏR"

"Biz faşizmi məhv etdik, Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır". Bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı söyləyib.

"Biz gücümüzü artırmışıq. İl yarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. İndi bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və əgər erməni faşizmi bir daha baş qaldırarsa, biz onu hər an əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır", - deyə dövlətimizin başçısı bildirib.

### "ERMƏNİSTAN ORDUSUNDAN İKİ-ÜÇ DƏFƏ AZ İTKİ VERMƏKLƏ BİZ TARİXİ MİSSİYAMIZI YERİNƏ YETİRDİK"

"Bizim 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar, müdafiə xətləri qurmuşdu. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq, çoxlu itkilər olacaq",- deyən Azərbaycan Prezidenti Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib ki, Azərbaycan əsgəri gücünü, Vətən sevgisini göstərdi və Qələbə qazandı. Bu fərziyyələrin nəticə etibarilə özünü doğrultmadığını qeyd edən dövlətimizin başçısı deyib: "Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular, Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada - tarixi şəhərimizdə qoyduq".

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, torpaqlarımızı 44 gün ərzində azad etdik: "Biz cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq. Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb ki, qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir".Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib və vurğulayıb ki, biz öz torpağımızı heç kimə verəsi deyilik: "Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi".

Prezident vurğulayıb ki, münaqişəyə son qoyan qəhrəman Azərbaycan əsgəri oldu. "Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### "XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILAR BÖYÜK QÜVVƏDİR, ONLARIN FƏALİYYƏTİ ÖLKƏMİZ ÜÇÜN ÇOX ÖNƏMLİDİR"

"Biz cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq. Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb ki, qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir". Bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı bildirib. Dövlətimizin başçısı deyib: "Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi".

Prezident vurğulayıb ki, münaqişəyə son qoyan qəhrəman Azərbaycan əsgəri oldu: "Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər".

***RƏFİQƏ KAMALQIZI***



# Xeyirxah insan, görkəmli yazıçı, böyük alim - Mir Cəlal Paşayev

Azərbaycan ədəbiyyatında böyük simaların nəfəsini duyduqca nə qədər böyük qəlbə, idraka, fəlsəfi düşüncəyə malik olduqlarını bir daha dərk edir və əminliklə bir daha onların klassik yaradıcı olduqları səndə əminlik yaranır. Zəhmət, istedad bahasına keşməkeşli yollardan keçərək, çətin bir zamanda yaşamalarına baxmayaraq, klassiklərin əsərlərini oxumuş və böyük sənətkarlardan dərs almışdılar. Əlbbətə ki, Azərbaycan ədəbiyyatı ilə yanaşı, dünya ədəbiyyatı nümunələrinə dərindən bələd olmaları oları böyük sənətkar səviyyəsinə yüksəldib. Təbii ki, Azərbaycan və dünya klassikasının mükəmməl nümuələrini əxs etmədən zirvələrə yüksəlmək qeyri-müşküldür. Bir ismin qarşısında pedaqoq, alim, istedadlı yazıçı kimi məfhumları birləşdirən Mir Cəlal Paşayev özündən əvvəlki və müasirləri olan yaradıcı simaların qələm məhsullarını mütaliə edərək mərhələ-mərhələ püxtələşmiş və sənətin fövqündə özünə layiqli yer qazanmışdır. Dövrün hadisələrini yaradıcı qələmlə oxucusuna təqdim edən yazıçı böyük hekayə ustası, böyük romanlar müəllif olaraq sevilmişdir. Azərbaycan ədəbiyyatında hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınan və elmin, ədəbiyyatın, təhsilin inkişafında misilsiz xidmətlər göstərən xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin 26 aprel tarixi doğum günüdür.

Mir Cəlal əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, eyni ardıcıllıq və uğurla yorğunluq bilmədən çalışmış, zəngin və məhsuldar yaradıcılıq yolu keçərək yüzdən artıq kitab çap etdirmişdir.

Keçdiyi ömür yolunu səhifələyirik. Burda yazılan hər sətir ustad yazıçının böyük ziyalığını, sənətkarlığını əks etdirir. Onun tərcümeyi-halında yazılır. Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə "Azərbaycanda ədəbi



məktəblər" əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdir.

## "BİR GƏNCİN MANİFESTİ" MİR CƏLAL YARADICILIĞININ BÜTÜN GÖZƏL KEYFİYYƏTLƏRİNİN VƏHDƏTİDİR

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri "Qızıl Gəncə", "Ədəbiyyat cəbhəsində", "Hücum" jurnallarında və "Gənc işçi" qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq "Sağlam yollarda" adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. "Dirilən adam" və "Bir gəncin manifesti" romanları yazıçının dəyərli əsərlərindəndir. "Bir gəncin manifesti" Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir, deyən xalq şairi Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş "Açıq kitab", "Təzə şəhər", "Yolumuz hayanadır?" kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: "Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir...".

## "VƏTƏN YARALARI" HEKAYƏSİNİ OXUDUQDAN SONRA MƏN DÜŞMƏNƏ QARŞI DAHA KİNLİ VƏ AMANSIZ OLDUM"

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi "Bostan oğrusu", "Yanlış barmaqlar", "Mərkəz adamı" kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, "Pərzad", "Qaymaq", "Dost görüşü", "Qonaqpərəst" kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Böyük Vətən müharibəsi dövründə "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

Böyük Vətən müharibəsi Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal "Yollar", "Axşam səfəri", "Atlı", "Snayper" hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürülmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: "Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum". O, arxa cəbhədə olan insanların da həyatını qələmə aldı.

## XEYİRXAH İNSAN, BÖYÜK MÜƏLLİM

Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı.

Mir Cəlal sadəcə bir ədib-müəllim deyildir, O, alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də Onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, Onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, Onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur.

Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir. Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır. Belə sənətkarların ömrü ədəbiyyatımız qədər əbədiyaşardır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycanla Tacikistan arasında münasibətlər qardaşlıq xarakteri daşıyır"

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin birgə təşkilatçılığı ilə aprelin 25-də Azərbaycanla Tacikistan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş dəyirmi masa keçirilib.**

BMTM-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə açılış nitqi ilə çıxış edən Mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev Tacikistanın Azərbaycan üçün əhəmiyyətli tərəfdaş olduğuna toxunub.

Tacikistanın Azərbaycandakı səfiri Rustam Soli qeyd edib ki, ölkələrimiz siyasi, iqtisadi, mədəni, parlamentlərarası və digər sahələrdə uğurla əməkdaşlıq edirlər. Diplomat vurğulayıb ki, iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrinə dair 60-dan çox sənəd imzalanıb. "Azərbaycanla Tacikistan arasında münasibətlər qarşılıqlı etimada əsaslanan qardaşlıq xarakteri daşıyır", - deyən səfir iqtisadi sahələr üzrə işçi qruplarının yaradılması üzərində işin getdiyini də bildirib. 2020-ci ilin aprelində Bakıda Tacikistan Ticarət Evinin açıldığını xatırladan R.Soli, həmçinin ölkəsinin Azərbaycanla aqrar sektorda mövcud əməkdaşlıq və investisiya imkanlarının olduğunu vurğulayıb. Səfir, eyni zamanda, iki ölkə arasında təhsil sahəsində qarşılıqlı əlaqələr və Tacikistandan olan tələbələrin Azərbaycanda təhsil almasından bəhs edib.





R.Soli regional təhlükəsizlik, Əfqanıstanda baş verən hadisələrin ölkəsinə təsirləri, həmçinin terrorizmlə mübarizə sahəsində Azərbaycanla mümkün əməkdaşlıq məsələlərinə toxunub.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri və ölkəmizin Tacikistandakı ilk fövqəladə və səlahiyyətli səfiri olmuş Məhərrəm Əliyev iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının tarixindən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Tacikistan Prezidenti Emoməli Rəhmonun dövlətlər arasında əlaqələrin inkişafındakı rolundan danışıb.

Milli Məclisin deputatı, Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə çıxışında iki xalq arasında əlaqələrin tarixin dərinliklərinə gedib çıxdığını vurğulayıb. O, iki dövlət arasında münasibətlərin hər iki tərəfin maraqlarına söykəndiyini deyərək bunu nümunəvi adlandırıb. A.Mirzəzadə xüsusilə ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin əhəmiyyətini qeyd edib. O əlavə edib ki, Tacikistan daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və biz bunu 44 günlük müharibə zamanı xüsusilə hiss etmişik.

Xarici İşlər Nazirliyinin nümayəndəsi Bünyad Hüseynov Azərbaycanla Tacikistan arasında mədəni əlaqələrin tarixinə, hər iki xalqın yaradıcı insanlarının xalqlar arasında körpü rolu oyanamasına toxunub. Azərbaycanın Tacikistandakı sabiq səfirləri Abbasəli Həsənov və Həsən Məmmədzadə çıxışlarında ölkələrimiz arasında münasibətlərin inkişafında xalq diplomatiyasının əhəmiyyətini qeyd ediblər. Tədbirdə Mərkəzi Asiya ölkələrinin və Gürcüstanın Azərbaycandakı səfirləri, elm və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

# Maska tələbinin ləğv edilməsinə ŞƏHƏR SAKİNLƏRİNİN BAXIŞI

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarına əsasən Azərbaycanda may ayının 1-dən maska tələbi ləğv edilir. Eyni zamanda, Azərbaycan Respublikasının beynəlxalq hava limanı ərazisində və Azərbaycanda fəaliyyət göstərən təhsil müəssisələrində tibbi maskalardan istifadəsi artıq məcburi xarakter daşımır və yalnız tövsiyə edilir. Bəs görək şəhər sakinləri maska tələbinin ləğv olunması barədə nə düşünür. SİA bu mövzu ilə bağlı sorğu keçirib.**



**Şəhər sakini Hicran Əmikişiyeva:** "İnsanlar həqiqətən tibbi maskaya doyublar. Amma kim özünü qorumaq istəyirsə, kimin xəstəliyə dözümü yox-



dursa maska taxmağa davam edəcəklər. Şəxsən mən tələb ləğv olunsa belə yenə də maska taxacam. Çünki yoluxma hələ də tam bitməyib. Ümumiyyətlə, maska istifadəsinin könüllü olmağı yaxşıdır".

**Şəhər sakini Aqil Hüseynov:** "Belə bir qərarın verilməsi lazım idi. Bu, nəinki bizim ölkəni, bütün dünyanı na-



rahat edən bir məsələdir. Onsuzda yoluxma sayı azalıb. Ümid edirəm ki, bu virus bəlası tamamilə yox olar".

**Şəhər sakini Sara Pənahzadə:** "Təbii ki, artıq maskanın ləğv edilməsi lazım idi. Maska taxılsa da - taxılmasa da xəstəlik olub, çox güman ki, olmağa



davam edəcək. Sadəcə hər kəs özünü qorumalıdır".

**Şəhər sakini Rza Abdullayev:** "Maskaya artıq heç bir ehtiyac yoxdur.



Xəstəlik sovrulub gedir. Qarşıdan yay fəsli gəlir. Qışda birtəhər taxmaq olur, amma havalar isti olanda heç cür dözmək olmur".

**Şəhər sakini Gülpəri Məmmədova:** "Düşünürəm ki, maska ləğv olunsa, hər mənada rahat nəfəs alarıq.



Mən özüm zob xəstəsiyəm. Mənim kimi o qədər insan var ki, maska taxmaq onları narahat edir. Bizim ailədə heç kim koronavirusa yoluxmadı. Çünki özümüzü qoruyurduq. Hər kəs özünü qorusa, maskaya da ehtiyac olmaz".

**Şəhər sakini Həsən Həmzəyev:** "Məncə, xəstəlik tam bitmədiyi üçün maskanın ləğv olunması hələ lazım deyildi. İnsanların iç-içə olduğu yerdə maska taxmaq daha yaxşıdır. Çünki heç kim yenidən virusa yoluxmayacağımıza zəmanət vermir. Biz özümüzü qorumasaq, heç kim bizi düşünən deyil".

**Ləman Əlizadə**

SORĞU

# "Azərbaycanla Tacikistan arasında əlaqələr hərtərəfli inkişaf edir"

"Bu gün Azərbaycan və Tacikistan arasında əlaqələr hərtərəfli inkişaf edir". SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi, Prezidentin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, Azərbaycanın Tacikistandakı keçmiş səfiri Məhərrəm Əliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Tacikistanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən Azərbaycan və Tacikistan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş dəyirmi masada deyib.



O qeyd edib ki, müstəqillik qazandıqdan sonra iki ölkə arasında əlaqələr qarşılıqlı hörmət və inam əsasında inkişaf etməyə davam edib. M.Əliyev bildirib ki, Azərbaycan və Tacikistan beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edir. "Bizim regional məsələlərdə mövqelərimiz üst-üstə düşür. Hər iki ölkə bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Bu gün Azərbaycan və Tacikistan arasında əlaqələr hərtərəfli inkişaf edir. İki ölkə liderləri arasında səmimi münasibətlər bu əlaqələrin inkişafına müsbət töhfə verir", - deyə M.Əliyev əlavə edib.

# Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin hazırlanması üçün işçi qrupunun görüşləri keçiriləcək



Azərbaycanla Ermənistan arasında Birgə Sərhəd Komissiyasının, habelə sülh müqaviləsinin işlənib hazırlanması ilə bağlı işçi qrupunun görüşlərinin yaxın zamanlarda təşkil olunmasına dair razılıq əldə olunub. Bu barədə SİA-ya Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Qeyd edək ki, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub. Nazirlər iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq fikir mübadiləsi aparıblar.

# "2022-ci il Böyük Qayıdışın başlanğıcı kimi yadda qalacaq"

"Böyük Qayıdışla bağlı proseslər intensiv şəkildə həyata keçirilir. Artıq minalardan təmizlənmə, nəqliyyat və kommunal xidmətlərlə bağlı şəbəkənin formalaşması istiqamətində işlər görülür". Bu sözləri SİA-ya açıqlamasında deputat, iqtisadçı ekspert Vüqar Bayramov deyib.




Onun sözlərinə görə, zəfərdən sonrakı müddətdə 700 km-dən artıq yollar salınıb və təmir olunub: "Eyni zamanda, əsas elektrik şəbəkəsi və daxili şəbəkələrin formalaşması ilə bağlı işlər davam etdirilir".

Deputat sözlərinə davam edərək qeyd edib ki, 2022-ci il həm də Böyük Qayıdışın başlanğıcı kimi yadda qalacaq: "Çünki 2022-ci ildə Zəngilan rayonunda ilk məskunlaşmanın həyata keçirilməsi gözlənilir. Həmçinin, bu il ərzində Füzuli rayonunda "ağıllı kənd"in inşasına başlanılacaq. Ümumiyyətlə, Füzuli, Cəbrayıl və Ağdam şəhərlərinin yenidənqurulması ilə bağlı proseslər davam etdiriləcək. Ötən müddətdə həyata keçirilən işlər 2022-ci ildə Böyük Qayıdışın başlamasına imkan yaradıb. Daha sonra isə məcburi köçkünlər mərhələli şəkildə öz doğma yurdlarına qayıtmaq imkanı əldə edəcəklər".

**Ləman Əlizadə**

## Qərib Mürşüdov:

# "Zəfər Qurultayı dünya azərbaycanlılarının Vətən üçün görəcəkləri işlərin müəyyənləşdirilməsində böyük əhəmiyyətə malikdir"

***Bu vaxtadək alim kimi bir çox elmi konfranslarda iştirak etmişəm. Zəfər Qurultayında isə dünyanın müxtəlif ölkələrində yaşayan ziyalı insanlarla bir məqsəd ətrafında toplaşmışıq. Belə bir Qurultayda iştirak ediyimə görə xoşbəxtəm. Alim olaraq Qurultayda elmi müzakirələrdə iştirak etməkdə, dünya azərbaycanlılarının qarşılaşdığı problemlərin düzgün həlli yollarının axtarılıb tapılmasında maraqlıyam.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Dünya Azərbaycanlılarının V Qurultayında iştirak edən Kembric Universitetinin Molekulyar



biologiya laboratoriyasının qrup rəhbəri Qərib Mürşüdov deyib.

O qeyd edib ki, Dünya Azərbaycanlılarının V Qurultayı müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların qarşılaşdığı çətinliklərin aradan qaldırılmasında, hər bir soydaşımızın Vətən üçün görəcəyi faydalı işin istiqamətinin müəyyənləşdirilməsində böyük əhəmiyyətə malikdir. Təbii ki, belə bir Qurultayın keçirilməsi həm də Azərbaycanın güclənməsi və inkişafı üçün vacibdir.

Zəfər Qurultayının Şuşada keçirilməsinin mühüm tarixi hadisə və böyük əhəmiyyətə malik olduğunu deyən Q.Mürşüdov bildirib ki, 30 ildən sonra dünya azərbaycanlıları Şuşanın işğaldan azad olunduğu günü böyük qürur hissi ilə bayram kimi qeyd ediblər.

"Ümidvaram ki, Şuşa gələcəkdə nəinki turizm, həm də mötəbər tədbirlərin keçirildiyi mərkəz olacaq və Azərbaycanın gələcək inkişafına töhfə verən şəhərə çevriləcək. Burada belə tədbirlərin keçirilməsi Şuşanın tarixinin və mədəniyyətinin təbliği baxımından da böyük əhəmiyyətə malikdir," - deyə Q. Mürşüdov vurğulayıb.

# Unudulmaz şəxsiyyət,

## güclü dövlət xadimi, fitri istedada malik siyasi lider

# HEYDƏR ƏLİYEV

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dahi şəxsiyyət, uzaqgörən milli lider Heydər Əliyev haqqında qeyd etdiyi kimi: ”Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var.”**

Ümummilli lider Heydər Əiyevin adı təkcə ölkəmizdə deyil, bütün dünya tarixində təkrarı, əvəzi olmayan böyük bir şəxsiyyət kimi qeyd olunmuşdur.

Tarixin çox da uzaq olmayan yaddaşına nəzər salsaq görərik ki, Azərbaycan dövləti məhz dahi lider Heydər Əliyevin apardığı müdrik, uzaqgörən siyasəti nəticəsində öz gələcək nicatını, çıxış yolunu əldə etdi. Heydər Əliyevin hər şeydən öncə ən gözəl xüsusiyyətlərindən biri xalqın arzusuna hörmətlə yanaşmaq, ona arxalanmaq, xalqla olan isti ünsiyyəti idi. Yəni, Heydər Əliyev xalqla daim məsləhətləşir, onların müzakirə olunan məsələyə münasibətini öyrənər və təbii ki, sonda ictimai rəyi nəzərə alardı.

1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nin plenumunda birinci katib seçiləndən sonra respublikamız dirçəliş dövrünə qədəm qoydu. Daha dəqiq desək, Azərbaycanın həyatında böyük dönüş, inkişaf dövrü başladı. Çox keçmədi ki, Azərbaycan iqtisadiyyatın inkişafına görə SSRİ-də ən qabaqcıl respublikaya çevrildi. 1970-ci ildən sonra Azərbaycanı öncüllər sırasına çıxarılmaqla yanaşı, gələcəyə istiqamətlənən uğurlu addım oldu.

Heydər Əliyev Azərbaycana rəhbər seçiləndə qarşıda başlıca vəzifə kimi, ilk növbədə, Azərbaycan xalqının maddi-mənəvi dəyərlərinin, ölkənin mənəvi-psixoloji mühitinin ciddi surətdə dəyişdirilməsi dururdu. Çox böyük manеələrə baxmayaraq, qətiyyətli lider bu vəzifənin öhdəsindən layiqincə





*Adilə Abasova - YAP Veteranlar Şurasının üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor*

gəlməyi bacardı.

Ulu öndər Heydər Əliyevin adı çəkiləndə nədənsə həmişə yadıma 1990-cı il, Moskva xatirələrim düşür. Heydər Əliyev Moskvada işləyərkən vaxtının yoxluğuna, son dərəcədə gərgin iş şəraitində işləməsinə baxmayaraq, Azərbaycan haqqında məlumatlarla daimi maraqlanırdı. O, imkan taparaq Moskvada yaşayan azərbaycanlılarla, o cümlədən də, vaxtı ilə şəxsən özünün buraya ali məktəblərdə təhsil almağa göndərdiyi azərbaycanlı tələbələrlə görüşür, onların həyatı ilə maraqlanır, qarşılaşdıqları problemlərin həllinə kömək edirdi.

Bir reallığı xüsusi qeyd edim ki, Heydər Əliyevin Moskvada yaşayan azərbaycanlılara mütəmadi göstərdiyi diqqət və qayğısı, mənəvi dayaq olması orada Azərbaycan diasporunun formalaşmasına və fəaliyyətinə güclü təsir göstərirdi. Heç kəsə sirr deyil ki, məlum hadisəyə qədər Azərbaycan dövləti tarixi sınaqlar üzündən vahid ideologiya formalaşdırmaq, milli maraqlar, milli mənafelər naminə birləşmədən uzaq düşsə də ulu öndər bu çətin maneəni böyük məharətlə dəf etməyi bacardı.

Yaxşı xatirimdədir. 1990-cı ildə baş verən və heç bir insanlığa sığmayan, günahsız insanların vəhşicəsinə qətlə yetirildiyi və tarixin səhifələrində qanlı 20 Yanvar hadisələri kimi yer alan bu ağır gün nəinki Moskvada, eləcə də Moskva ətrafında yaşayan bütün azərbaycanlıların daha da sıx birləşməsinə başlıca səbəb oldu. O zaman mən də Moskvada yaşayan azərbaycanlarla birgə Azərbaycan diasporunun formalaşmasında yaxından iştirak edirdim.

Yadımdadır, ulu öndər yaratdıgımız ”Vətəndaş Cəmiyyəti” ilə həmişə maraqlanır, soydaşlarımızın milli özünəməxsusluğunu qorunub saxlanmasına, təşkilatlararası əlaqələrin daha da genişlənməsinə, milli birliyin yaradılmasına və qorunub saxlanmasına diqqət göstərirdi. O, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı bir-birləri ilə, vətənlə əlaqələr yaratmağa, onu möhkəmləndirməyə səsləyirdi. Vətənin sevinci onun sevinci, kədəri də onun kədəri idi. Ona görə də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxt Bakıda törədilən qanlı qırğından böyük narahatlıq keçirən Heydər Əliyev Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək baş verən hadisələri hiddətlə itiham edən bəyanat verərək, onun baş vermə səbəbini, bu faciədə olan iştirakçıların adlarını bütün dünyaya bəyan edərək bildirdi ki, 20 Yanvar tarixində Sovet ordusu müstəqillik istəyən azərbaycanlıları vəhşicəsinə qırmış, dinc insanlara - istər uşaq, istərsə də böyük olsun, fərq qoymamış, hamısını amansızcasına öldürmüşdür.

Həmin vaxt bu qandonduran cinayət bütün azərbaycanlıları ayağa qaldırdı və biz, Moskvada yaşayan azərbaycanlılar günahsız insanlara qarşı törədilən hadisələrə etirazımızı bildirmək üçün 21yanvar tarixində Moskvadakı Azərbaycan Nümayəndəliyinin (indiki Azərbaycan səfirliyi) qarşısına toplaşdıq. Ulu öndər Heydər Əliyev, İlham Əliyev və digər şəxslər də səfirliyə gəlmişdilər. Ulu öndər həyatını təhlükədə qoyaraq çox cəsarətli çıxış edərək, bu qanlı hadisələri törədənləri təcavüzkar adlandırdı. Biz çox həyacanlı idik. Qışın ən sərt ayı, 18 dərəcə şaxta olmasına baxmayaraq, kolon şəklində Ostankin televiziyasına getdik və proqramların birində etirazımızı çatdırmağa nail olduq...

Tarixin səhifələrində xüsusi yeri olan ümummilli lider Heydər Əliyevi mən həm Moskvanın Elmi-Tədqiqat Tətbiqi Fizika İnstitutunda laboratoriya müdiri, həm də Milli Məclisdə (1992-2020-ci illərdə) şöbə müdiri vəzifəsində işlədiyim dövrdən yaxşı tanıdığım üçün fəxrlə deyə bilərəm ki, Heydər Əliyev tarix yaradan dahi şəxsiyyətlərdəndir. Onun şəxsi həyatı, gənclik illəri, ömrünün bütün illəri gərgin, zəhmətlə keçib. Ona görə də demək olar ki, o, ilk növbədə öz həyatının tarixini yazıb. Sovet dövründə Milli Təhlükəsizlik Orqanında işləmək heç də asan məsələ deyildi. O, çox böyük çətinliklərlə rastlaşsa da əqidəsindən dönməmiş, vətənə borcunu şərəflə ödəmişdir. Bu gün insanlar ötən tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, müdrikliyinin şahidi olurlar. Harada işləməsindən asılı olmayaraq həmişə xalqına, vətəninə sədaqətlə qulluq etmişdir.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etməsi parlamentə yeni nəfəs, yeni ruh gətirdi. Parlamenti kökündən dəyişdi. Azərbaycan vətəndaşı kimi böyük fəxr və qürur hissi ilə deyə bilərəm ki, uzaqgörənliklə təməli möhkəm bünövrə üzərində qurulan dövlətimiz özünün yeni, zirvəyə istiqamət götürən mərhələli inkişaf dövrünə qədəm qoydu.

3 oktyabr 1993-cü ildə ulu öndər Heydər Əliyevin prezident seçilməsi ilə Azərbaycan tarixinin yeni mərhələsi, yeni dövrü başlamaqla yanaşı, ölkəmiz parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən qurtardı. Azərbaycanın müstəqilliyini əldə etməsi, qüvvətlənməsi, dünya dövlətləri arasında seçilməsi də məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün oldu.

Tarixi şəxsiyyətlərə zaman özü həmişə ehtiyac duyub və şərait yaradıb. Respublikamızın Heydər Əliyevə ehtiyacı olanda o, bu tarixi missiyanı öz üzərinə götürərək Azərbaycanda siyasi rəhbərliyə gəldi. Çoxları etiraf edir ki, onların yaşadıqları ölkədə ciddi dəyişikliklər zəruri, lazım idi. Çünki əks təqdirdə Azərbaycan daha böyük bəlalara düçar ola bilərdi.

Azərbaycan qısa zaman ərzində ciddi şəkildə dəyişdi. Söhbət təkcə Azərbaycan iqtisadiyyatının, sənayesinin, kənd təsərrüfatının müəyən bir zaman çərçivəsində əhəmiyyətli dərəcədə dirçəldilməsindən getmir. Əsas məsələ bütövlükdə Azərbaycanın milli-mənəvi dəyərlər sisteminin dəyişməsində ifadə olunan yeniliklərdə idi. Əgər mənəvi sahəni əhatə edən dəyişikliklər olmasaydı, o zamankı cəmiyyəti içəridən sarsıdan, dağıdan səbəblər aradan qaldırılmasaydı, yəqin ki, qısa müddətdə Azərbaycan sürətlə inkişaf edə bilməzdi.

İndi biz məmnunluq hissi ilə deyirik ki, Heydər Əliyevin memarı və qurucusu olduğu müasir, müstəqil Azərbaycan dövləti bütün dünyada ən dinamik iqtisadiyyatı olan, ən böyük sürətlə inkişaf edən dövlət kimi tanınmışdır. Bu onu göstərir ki, Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət, yol bütün ideoloji çərçivələrdə əhəmiyyətli dəyişikliklərin baş verməsinə baxmayaraq, xalqımıza, vətənimizə xidmət edib və bu gün də xidmət etməkdədir.

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev bütün sahələrdə olduğu kimi respublika qadınlarının hüquqlarının qorunması, onların ictimai fəallığının təşkili məsələsini gündəmə gətirmiş, onlara qayğı ilə yanaşaraq, daim diqqət mərkəzində saxlamışdır. Bu məsələ, qadın siyasəti onun uzaqgörənliyi və qətiyyəti sayəsində geniş vüsət almışdır.

Azərbaycan qadınına hər zaman yüksək dəyər verən ulu öndər Heydər Əliyev çıxışlarında dönə-dönə belə söyləmişdir: ”Azərbaycan qadınları tarix boyu ağlı, zəkası, namusu, qeyrəti, isməti, müdrikliyi, fədakarlığı, torpağa, vətənə sədaqəti, cəsur və qorxmaz olmaqla bərabər, bir çox çətin vəziyyətlərdə düzgün yol seçməyi ilə fərqlənmiş, üzərinə düşən vəzifəni şərəflə yerinə yetirmişdir”.

1993-cü ildən sonra qadınların ictimai-siyasi həyatda rolu, onların dövlət strukturlarında təmsil olunmaları, kişilərlə bərabər çiyin-çiyinə işləmələri, onların hansı sahədə işləmələrindən asılı olmayaraq əməklərinə layiqincə qiymətin verilməsi qadınlara verilən dəyərdən xəbər verir.

Xüsusi qeyd etmək istərdim ki, Milli Məclisdə mənim şöbə müdiri vəzifəsinə təyinatım məhz Heydər Əliyevin Spiker olduğu müddətdə onun tövsiyəsi ilə olmuşdur. Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrlərə nəzər salsaq görərik ki, dövlət strukturlarına, məsuliyyətli ictimai işlərə qadınların irəli çəkilməsi, aktiv fəaliyyətlərinə şəraitin yaradılması hər zaman onun diqqət mərkəzində olub. Azərbaycan qadınına ən yüksək qiyməti ulu öndər Heydər Əliyev verib. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının məhz Heydər Əliyevin adı ilə bağlı olması danılmaz tarixi faktdır. O, qadınların idarəetmə, qərar qəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini ən vacib amillərdən saymışdır. Ulu öndərin qurucusu olduğu müasir Azərbaycanın inkişafında qadınların rolu əhəmiyyətli dərəcədə artmışdır. Onun imzaladığı mühüm Fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar olmuşdur. Heydər Əliyev hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər.

Azərbaycanda lider qadınlar, sahibkar qadınlar yetişir. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, bir sözlə, bunu hər sahədə görmək olar. Hökumətdə, nazirliklərdə, Milli Məclisdə qadınlarımızın fəallığı artmaqda davam edir. Bu kimi müsbət nəticələrin əldə olunmasında Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə qadın hüquqlarının qorunması üçün bir çox qanunlar qəbul etməsi, Fərman və sərəncamlar imzalaması, beynəlxalq təşkilatlara üzv olaraq mühüm sənədlərin ölkəmizdə tətbiq olmasını reallaşdırması tarixi gerçəkliklərdir.

Heydər Əliyev Azərbaycan qadınlarının I qurultayında çıxışında Azərbaycan qadınlarının tarix boyu torpaqlarımızın toxunulmazlığı, doğma el-obanın əmin-amanlığı, dinimizin, adət-ənənələrimizin, mədəniyyətimizin, bir sözlə, dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda kişilərlə bərabər mübarizə apardığını, dünya tarixində hünər, cəsarət, qorxmazlıq, vətənpərvərlik, müdriklik nümunələri göstərdiyini böyük fərəh hissi ilə vurğulamışdır.

Sadəcə onun həyat yoldaşı Zərifə xanım Əliyevaya olan qarşılıqlı sevgisinə, ona olan böyük məhəbbətinə diqqət yetirmək kifayətdir ki, bu böyük şəxsiyyətin necə gözəl, təmiz qəlbə sahib olduğunu anlaya biləsən. 2001-ci il aprel ayının 28-də Zərifə xanımın xatirəsinə həsr olunmuş mərasimdə ümummilli lider belə deyir: " ... Zərifə xanımı xatırlamaq, bəlkə mənim üçün daha da təsirlidir. Çünki Zərifə xanım mənim həyat yoldaşım idi. Bəlkə də mənim qədər onu tanıyan, onu hiss edən adam olmayıb... Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır". Ulu öndər bu sevgisi ilə milyonlara nümunə ola biləcək bir məhəbbətin tarixini yaradıb.

Biz Heydər Əliyevin Zərifə xanıma qarşı sonsuz məhəbbətinin, onun adını çəkərkən gözlərinin dolduğunun şahidi olmuşuq. Yaxşı yadımdadır, Moskvada Alimlər evində keçirilən Zərifə xanımın vida mərasimində çoxlu sayda azərbaycanlılar iştirak edirdi, mən də orada idim. Həmin mərasimdə Heydər Əliyevin necə duyğusal oldugunun şahidi oldum. Bu gün O, bu sevgisi ilə tarixin səhifələrində saf bir məhəbbətin abidəsini yaradıb...

Dövlət başçısı qadın problemlərinin dövlət səviyyəsində həlli üçün mühüm Fərman da imzalamışdır. 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə qadınların fəallığına, cəmiyyətdə öz yerlərini tutmalarına kömək olmuş, hüquqlarının müdafiəsi istiqamətində müstəsna əhəmiyyətli işlər görmüş, müxtəlif tədbirlər həyata keçirmişdir. Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı isə ölkədə qadın siyasətinin daha da güclənməsinə gətirib çıxartmışdır. 2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı"nı qəbul etmişdir. Bu proqram milli prioritetləri nəzərə alaraq, Pekin Strategiyası əsasında hazırlanmışdır. Proqram siyasət, iqtisadiyyat, sosial, mədəniyyət, təhsil və səhiyyə sahələrini, eləcə də qaçqın və məcburi köçkün qadınların problemlərini əhatə etmişdir. Milli Fəaliyyət Planının müddəalarını həyata keçirmək üçün qurumlararası qrup da yaradılmış və həyata keçirilməsində həm dövlət strukturlarının, həm də QHT-lərin iştirakı nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının ali hüquqi sənədi olan Konstitusiyaya əsasən, dövlət hər bir insanın irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Qadın siyasəti müstəqil Azərbaycan dövlətinin əsas prioritet sahələrindəndir.

Bu gün çox xoş bir qismətdir ki, onları ürəkdən dəstəkləyən, qayğılarını çəkən, ən əsası isə həqiqi qiymətini verə bilən dövlət başçımız vardır. Yaxşı bilirik ki, hər hansı bir dövrdə qadına münasibət, ilk növbədə, ölkə başçısının qadın siyasətindən asılıdır. Bu sahədə Azərbaycan qadınlarının da bəxti gətirmiş hesab etmək olar. Çünki uzun müddət bizim müstəqil dövlətimizin başında bəşər tarixinin XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət, böyük dövlət xadimi, fitri istedada malik siyasi lider, Azərbaycan xalqının əvəzedilməz lideri Heydər Əliyev dururdu.

Ümummilli liderimiz Heydər Əliyev qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin mühüm, prioritet vəzifələrindən biri hesab edirdi. Müstəqil Azərbaycanın 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır. Onlar dövlət orqanlarında qulluq etmək və bütün seçkilərdə qeyd-şərtsiz iştirak etmək hüququna malikdirlər.

Heydər Əliyevin "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" 6 mart 2000-ci il tarixli fərmanında Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutaraq qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılması, qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə onların münasib işlə təmin edilməsi proqramının hazırlanıb həyata keçirilməsi və sair tapşırılmışdı. Bu, ümummilli liderimizin respublika əhalisinin yarıdan çoxunu təşkil edən qadınlara böyük diqqəti idi.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoymuşdur. Dövlətimizin qadınlarla bağlı yürütdüyü siyasət bu sahədə Azərbaycanı öncül dövlətlər sırasına gətirib. Ölkəmizdə qadın problemləri daim dövlət qayğısındadır və gender proqramı ardıcıl surətdə həyata keçirilməkdədir. Ölkə prezidentinin rəhbərliyi ilə Azərbaycanda yeni siyasi və iqtisadi sistem qurulmuş, ölkəmiz sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmişdir.

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırır. Fəxrlə deyə bilərik ki, bu gün Mehriban xanım Əliyevanın simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur. Mehriban xanımın gördüyü işlərin mühüm göstəricisi Heydər Əliyev Fondunun timsalında əks olunub. Heydər Əliyev Fondu Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasını və digər mühüm işlərin icrasını təmin edir. Fond Azərbaycan xalqının öz böyük siyasətçisi Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzusu və istəyinin nəticəsidir, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək zərurətidir.

Dahi siyasətçi Heydər Əliyev siyasətini ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev ölkənin ictima-siyasi həyatında qadınların fəaliyyətinin genişlənməsinə çox böyük diqqət yetirir. Prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif sahələrdə fərqlənmiş qadınlar yüksək mükafatlara və fəxri adlara layiq görülüblər. Qadınların ictimai-siyasi həyata, dövlət qurumlarında rəhbər vəzifələrə daha çox cəlb olunması, uşaqların hüquqlarının təmin edilməsi və onlar üçün zəruri şəraitin yaradılması istiqamətində ciddi işlər görülür. Bir sözlə, öz xalqı ilə bir olub onu düşünən, onun müqəddaratında önəmli rolu olan, bütün çətinlikləri dəf edən, xalqının rifahında, taleyində müstəsna xidmətləri olan fenomenal şəxsiyyətlər, seçilmişlər öz ideyaları, düşüncə tərzi, öz gözəl əməlləri ilə tarixin səhifələrində iz qoyur, əbədi yaşamaq haqqı qazanırlar...

Böyük qürur hissi ilə deyə bilərik ki, bu gün möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti özünün yeni müasir inkişaf dövrünü yaşayır. Hər birimiz Heydər Əliyevin dövlətçilik amallarına sadiq qalaraq ulu öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməli, dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vəzifələrimizi layiqincə yerinə yetirməli və daha əzmkarlıq çalışmalıyıq. Dahi siyasətçi Heydər Əliyevin yaddaşlara həkk olunan əziz xatirəsi hər bir kəsin qəlbində dərin kök salaraq yaşayır, yaşayacaqdır.

# "Ermənistan ən təsirli və səmərəli cavab alacağına əmin olmalıdır"

**"Ötən gün Ermənistan tərəfinin təxribatlara əl ata biləcəyi barədə saytların birində məqaləm dərc olunmuşdu. Bu barədə güc strukturlarımızı ayıq-sayıq olmağa çağırmışdım. Bu barədə həmin məqalədən 9 saat sonra Dövlət Sərhəd Xidmətindən verilən açıqlamada məlum oldu ki, erməni silahlıları Zəngilan istiqamətində Azərbaycan ərazilərinə müdaxilə üçün cəhd ediblər". Bu sözləri SİA-ya açıqlamasında hərbi-ekspert Ədalət Verdiyev deyib.**



Onun sözlərinə görə, bu hadisə bir daha onu göstərdi ki, Ermənistan tərəfi Azərbaycanla sülh müqaviləsinin irəli aparılmasına hazır deyil: "Delimitasiya komissiyalarının yaradıldığı, sülh sazişinin üzərində işlərin başlandığı bir vaxtda Ermənistan tərəfinin növbəti dəfə təxribata yol verməsi qəbuledilməzdir. Bu prosesə görə Ermənistan tərəfi ən təsirli və səmərəli cavab alacağına əmin olmalıdır.

Ədalət Verdiyev sözlərinə belə davam edib: "Bütün baş verən görə məsuliyyət tamamilə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ordumuz və Silahlı qüvvələrimizin bütün strukturları bu tip təxribatların qarşısının alınması üçün kifayət qədər güc və imkanlara malikdir".

***Ayşən Vəli***

## "Ukrayna geosiyasi güclər arasında poliqona çevrilib"

**"Rusiya və Ukrayna müharibəsinin yenidən gərginləşdiyinin şahidi oluruq. Artıq Rusiya ordusunun müharibədə ikinci mərhələyə keçdiyi müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında politoloq Zaur Məmmədov deyib.**

Onun sözlərinə görə, Mariupolun tutulmasından sonra rus qoşunu digər istiqamətlərdə hücuma davam edir: "Təəssüf ki, dünya Avrasiyanın orta yerində baş verən müharibə qarşısında susqunluğunu nümayiş etdirir. Səsləndirilən bəyanatlar, atılan addımlar isə daha çox siyasi xarakter daşıyır".



Politoloq sözlərinə davam edərək qeyd edib ki, həyatını itirən də, yurd-yuvasından köç edən də sadə xalq olur: "Bu gün Ukrayna geosiyasi güclər arasında poliqona çevrilib. Əgər əvvəllər poliqon rolunu İraq, Əfqanıstan, Suriya oynayırdısa, bu dəfə hadisələr Ukraynada cərəyan edir. Bu da onu göstərir ki, xarici siyasət davranışında kifayət qədər ayıq olmaq, çevik hərəkət etmək lazımdır. Dünya liderlərinin əsas prinsipi vədlərə deyil, real işlərə inanmaq olmalıdır".

**Ləman Əlizadə**

# Tonoyanın yalançı etirafları...



**...Budur tipik erməni "humanizmi"! İndi məlum olur, necə də "həssas" ürək sahibiymiş. Deyim ki, indi onun dediklərinə qulaq asanlar onda olan "səmimiyyətə" heç cür şübhə etməməlidir, amma...**

Yəqin ki, Siz də söhbətin kimdən getdiyini başa düşdünüz. Bəli, vaxtilə ermənilərin müdafiə naziri olmuş David Tonoyan...

Deməli, Tonoyan erməni saytına "etiraf" edərək bildirir ki, guya o vaxt Nikol Paşinyan bu vəzifəni, yəni Ermənistan müdafiə nazirliyinə başçılıq etməyi ona təklif edəndə, ilk olaraq o tərəddüd edib. (...yəqin o hərbi xidmətdə-filanda olmamasını yadına salıb, amma bununla bağlı heç nə demir- A.B.).

Lakin erməni dostların çoxsaylı müraciətləri və eyni zamanda Ermənistan Silahlı Qüvvələrinin inkişafı ilə bağlı "onu narahat edən məsələlər" Tonoyanı ölkənin müdafiə naziri olmağa "vadar edib". Təbii ki, bütün bunlar artıq keçmişdə qalıb deyə köhnə palan içi eşəsi deyilik...

Amma maraqlıdır ki, Tonoyan bu günlərdə köhnə əyyamlara baş vuraraq əsil ermənilərə məxsus, təbii ki, təhrif olunmuş ilə açıqlamada bulunub. Belə ki, sabiq nazir "mentalitet və keçdiyi yola" diqqət çəkərək guya heç vaxt Nikolun "siyasi komandasının" üzvü olmadığını bildirib. (...yalansa)

Sən demə, "humanizm mücəssəməsi" olan David heç vaxt heç bir müharibə tərəfdarı-filan olmayıb. İndi ona İkinci Qarabağ Müharibəsini qızışdırmaqla bağlı irad bildirəndə belə, "daş atıb başın tutur". Demə, "yeni torpaqlar üçün yeni müharibə" kimi sərsəm doktrinanı "elan edən" də bu deyilmiş.

Təsadüfi deyil ki, Rusiya XİN-in rəhbəri Sergey Lavrov sonradan məhz Tonoyanın bu doktrinasını, o cümlədən, Ermənistan hakimiyyətinin digər təxribatçı bəyanat və fəaliyyətlərinin Qarabağda yeni müharibənin alovlanmasına səbəb olduğunu etiraf etmişdi.

"...Biz torpaqları işğal etmişik, onları sizə qaytarası deyilik, əgər istəsəz belə qaytara bilməzsiniz, çünki döyüşməyi bacarmırsınız, əgər bacarsanız belə, onsuz da sizə icazə verməyəcəklər. Buna görə, bu torpaqların Ermənistanın nəzarətində qalması ilə razılaşın".

Bəli, Siz öz halal torpaqlarınızı geri qaytara bilməzsiniz. Çünki ermənilərin hərb elmini "beş barmağı kimi bilən" David Tonoyam kimi müdafiə naziri var. Maraqlıdır ki, Tonoyan buna nəinki bütün erməniləri, hətta az qala özünü də inandırmışdı. Təbii ki, belə olmasaydı o Nyu-Yorkda erməni icmasının nümayəndələri ilə görüş zamanı "...müdafiə naziri kimi deyirəm ki, mən "sülh müqabilində ərazilər" formulunu "yeni müharibə - yeni ərazilər" formuluna çevirmişəm" deyə özündənmüşdəbeh şəkildə bəyan etməzdi.

"...Güzəştlər mümkündür. Hücum bölmələrinin sayını artıracağıq və səngərdən, müdafiə vəziyyətindən düşmən ərazisinə hərbi əməliyyatlar keçirə biləcək bölmələrin artırılmasına keçəcəyik". Deyim ki, bu fikirlər də Tonoyana məxsusdur. Onu da deyim ki, həmən ərəfədə "Tonoyanın sözlərini ciddi qəbul etməyə meylli" olmayan xeyli erməni "səslərini qaldırmaq istəsələr də", amma belə görünür ki, həmən vaxt Tonoyan dediklərində "israrlı" idi.

...Amma bu gün, erməni ruyakarlığı, erməni ikiüzlüyü ilə hər şeyi danır. Hətta vaxtilə yanında "quyruq buladığı" Nikol Paşinyanı belə "siyasi rəhbər" kimi qəbul etmədiyini deyir.

...Təbii ki, yalan danışır. Məsələ bundadır ki, bu gün Ermənistanda hələ də onu boşboğazın birisi kimi baxırlar.

***Ağasəf Babayev***



Elçin Bayramlı

# Budaqlar niyə bar vermir?

**Bəşər sivilizasiyasının inkişafı yalnız elmin sayəsində mümkün olmuşdur- demək artıq olardı. Zira, elm dedikdə buraya olduqca geniş sferada sahələr cəmləşir- fəlsəfi düşüncə, siyasət və ədəbiyyatdan, tutmuş texnoloji, iqtisadi, hərbi, mədəni industriyalar.**

Elmin son məqsədi insanların düzgün fiziki və mənəvi inkişafını, yaradılışın mahiyyətini, müxtəlif problemlərin aradan qaldırılması yollarını tapmaqdan ibarətdir. XX əsrədək elm əsasən, cəmiyyətin həyatını yüngülləşdirmək, əl əməyini aradan qaldırmaq və təbii sərvətlərin əldə edilməsi, istehsalı və istehlakını təmin etmək istiqamətində inkişaf edirdi.

XX əsrdə hərbi texnologiyaların inkişafına daha çox diqqət verilməyə başlandı. İri dövlətlər öz işğalçılıq məqsədlərini həyata keçirmək üçün hərbi sənayeni sürətlə inkişaf etdirməyə və alimlərin əsas zərbə gücünü buraya toplamağa girişdilər. Elmdən dövlətlərin güclənməsi üçün istifadə geniş vüsət aldı.

I və II Dünya müharibələrində elmin həlledici rolunu bütün dünya əyani surətdə gördü. Daha sonralar sosializm və kapitalizm dünyasının timsalında iki rəqib cəbhə formalaşanda və sərhədlərin birdəfəlik müəyyən edilməsi və dəyişdirilməməsi qərara alınanda məlum oldu ki, artıq mübarizə elmi müstəviyə keçir.

Son dünya müharibəsinin faciəvi nəticələri Avrasiyanın xarabalıqları üzərində sərgilənirdi. Bu mənzərə cəmiyyətləri müharibə əleyhinə elə bir ovqata kökləmişdi ki, xalq müharibə etmək istəyən hökuməti 1 saat ərzində devirərdi.

Soyuq müharibə dövründə hərbi sənayenin inkişafı davam etsə də, digər sahələrdə də rəqabət şiddətlənmişdi. İqtisadi (sənaye) texnologiyalar, peyk-rabitə sistemləri, nüvə energetikası, elektronika sənayesi sürətlə inkişaf etməyə başlamışdı.

Artıq 2 növ ölkələr əmələ gəlmişdi; sənaye ölkələri və aqrar ölkələr. Başqa sözlə desək- xammal ölkələri və bu xammalı məhsula çevirən ölkələr. Hansı ölkə elmə, təhsilə üstünlük vermişdisə, o ölkələrdə müasir zavod-fabriklər, emal müəssisələri tikilmişdi.

Elmə, texnologiyaya üstünlük verməyən ölkələr isə öz xammalını su qiymətinə onlara satmağa məcbur olurdu. Məsələn, sənaye ölkəsi aqrar ölkədən pambığın kq-i 30 qəpiyə alıb, ondan 2 köynək tikir və onun özünə 30 manatdan (100 qatına) satırdı. Ya da, 1 ton metal və digər xammalı 1000 manata alıb ondan avtomobil düzəldir və qaytarıb həmin ölkəyə 30 min manata satırdı.

Maraqlıdır ki, dünyanın siyasi, iqtisadi xəritəsinə nəzər salanda aydın görünür ki, ən geridə qalmış ölkələr arasında müsəlman ölkələri əsas yer tutur. XX əsrdə müsəlman ölkələri arasında elmi, mədəni, iqtisadi cəhətlərdən ən inkişaf etmişi keçmiş sosialist respublikaları olan Azərbaycan və Qazaxıstan idi ki, bunun da səbəbi onların 20 il əvvələdək dünyanın ən böyük elm və texnologiya dövlətlərindən birinin- Sovet İttifaqın tərkibində olması idi. Lakin son 30 ildə bu ölkələrdə formalaşmış elmi potensial tədricən dağılıb getdi.

Düzdür, İran, Pakistan, Qətər, Türkiyə, Bəhreyn, Səudiyyə kimi sərvətlərlə zəngin, inkişaf etməkdə olan müsəlman ölkələri var, lakin onların da əsasən, bu təbii sərvətlərin istismarı nəticəsində yaşadığı- mədəni, elmi, texnoloji cəhətdən dərin inkişafı olmadığı aydındır. Son dövrlərdə İndoneziya, Türkiyə və İran elm və sənayedə xeyli irəliləsələr də hələ tam elm və texnologiya dövlətinə çevrilə bilməyiblər.

Azərbaycanda Sovet dövründə böyük elmi potensial yaradıldı, nəhəng elm imperiyası formalaşdı- bizdə çoxsaylı elmi-tədqiqat institutları ilə Elmlər Akademiyası fəaliyyət göstərəndə nə İndoneziyada, nə İranda, nə Türkiyədə, nə də Səudiyyədə yox idi.

Sözümün canı odur ki, xalqlar, dövlətlər inkişafa ancaq elmin sayəsində nail olurlar, əks halda ucuz və geridə qalmış xammal ölkəsi kimi qalırlar. Elm tutumlu sənaye sektoru isə bu günün və gələcəyin qarantıdır.

Bunun üçün çoxsaylı elmi mərkəzlər, alimlər, texnoloqlar lazımdır. Elmi institutlarımız yalnız formal cəhətdən qalıb. Köhnədən qalmış alimlərimiz də bir-bir dünyadan gedir. Bu "ağacların" budaqları artıq bar vermir. Onların yerinə yeni alimlər yetişmir. Budaqlar niyə bar vermir? Bu haqda ciddi düşünməyin- səbəbi aydınlaşdırmaq və vəziyyəti dəyişməyin vaxtıdır. Bəs burada hansı əngəllər var, necə həll etmək olar? Bu barədə növbəti yazımda.

## İQTİSADÇI AÇIQLADI

**"Azərbaycanın taxıl idxalında Rusiya 80-84%, Qazaxıstan 16-20% paya sahib idi. Rusiya məhdudiyyət qoyduqdan sonra idxal payın 46%-ə endirdik, Qazaxıstanın payını isə 54%-ə qaldırdıq. İndi Qazaxıstan da taxıl idxalına məhdudiyyət tətbiq etdi. Bu vəziyyəti qorxulu hal hesab etməyə və ajiotaj yaratmağa gərək yoxdur. Əvvəla ona görə ki, Azərbaycan ötən ilin eyni dövrü ilə müqayisədə taxıl ehtiyatını artıra bilib. Digər tərəfdən, dünya taxıl istehsal həcmləri Rusiya və Qazaxıstandan ibarət deyil". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib.**

Onun sözlərinə görə, Çin 135 milyon tonla birinci, Hindistan 99 milyon tonla ikincidir: "Dünya bazarlarına buğda ixrac edən ölkələr sırasına 39,5 milyon tonla Rusiya 3-cü sırada dayanır. Ardınca ABŞ, Kanada, Fransa və digər dövlətlər gəlir. 1-ci yerdə qardaş Türkiyə də var.




Rusiya ilə Qazaxıstan başlarına hələ nələrin gələcəyini bilmədikləri üçün öz ehtiyatlarını artırır və məhdudiyyət tətbiq edirlər. Onların boşaltdığı bazarları tutmağa hazır olan ABŞ. Fransa, Hindistan və s. kimi ölkələr isə həmişə var".

İqtisadçı sözlərinə davam edərək həmçinin qeyd edib ki, Hindistan artıq Rusiyanın boşaltdığı bazarları tutmaq üçün dünyanın 30-a yaxın ölkəsinə özü müraciət edib. Məlumatlara görə, burada Azərbaycan da var. Hindistan bu fürsətdən istifadə edərək, 99 milyon tonluq istehsal həcmini 112 milyon tona çatdıracağını bildirir.

Analitik hesab edir ki, taxıl alışında narahat olmalı məqamlar da var. Bu daşınma məsafəsinin uzaqlığı, logistik xərclərin artmasıdır. Eləcə də tələbin artması fonunda ixracatçıların ixrac rüsumlarını yüksəltmə riskləridir. Bütün bunlar məhsulun maya dəyərinə oturduğu üçün qiymətlərin bahalaşması qaçılmazdır. Deməli, problem taxıl yox, qiymətdədir.

Bununla belə, taxıl idxal mexanizmlərinin yenidən başlaması müəyyən çətinliklər olmadan keçməyəcək. Uzun məsafələr logistika xərclərinin artması ilə əlaqələndirilir. Bundan əlavə, ixracatçılar tələbatın artması səbəbindən ixrac rüsumlarını artıra bilərlər. Bütün bunlar malın son maya dəyərində əks olunduğu üçün qiymət artımı qaçılmaz olacaq. Deməli, söhbət buğda tədarükündən yox, puldan gedir, satıcılar isə həmişə olacaq. Qiymət artımı probleminin optimal həlli subsidiya mexanizmlərinin genişləndirilməsi müstəvisindədir. Bu, son məlumatlara görə, 52,7 milyard dollar valyuta ehtiyatına malik olan bir ölkə üçün tamamilə həll edilə bilər".

***Ləman Əlizadə***

TƏHLİL

# İnsan hüquqları, vətəndaş cəmiyyəti hüquqi dövlətin təməl prinsipidir




**Vətəndaşlarımız hüquq sözünün, hüquqi dövlət anlayışının əsl, həqiqi üzünü məhz müstəqillik dönəmindən sonra gördülər, çünki müstəqillik dönəminə qədər hüququn aliliyi, hüquqi dövlət yalnız sözdə idi. Ölkəmiz müstəqillik dönəminə qədəm qoymazdan öncə hüquq, yaxud hüquqi dövlət ifadələri insan haqları və azadlıqlarına xidmət etmirdi, formal ifadə kimi işlədilirdi. Amma müstəqillik dönəmindən sonra vətəndaşlarımız şahidi oldular ki, əslində hüquq insana, hüquqi dövlət vətəndaşa xidmət edir. Bəli, şahidi oluruq ki, müstəqil dövlətimizdə insan amili hər şeyin önündə dayanır.**

Təbii ki, insanların haqq və hüquqları vardır və əgər insanlar öz haqlarını, hüquqlarını müdafiə etmək istədikləri zaman buna nail olurlarsa, belə cəmiyyət azad, demokratik cəmiyyət hesab olunur və vətəndaşlarının bu kimi hüquqlarını müdafiə və mühafizə edən dövlət isə hüquqi dövlətdir. Biz hüquqi dövlətin, insan azadlığının necə olduğunun şahidi olduqca bunun necə bir nemət olduğunu gördük və buna görə də cəmiyyətimiz hüquqi normaların həyatımıza daşınması üçün əməli addımları lazımınca dəstəklədi. Beləliklə də "insan hüquqları hüquqi dövlətin təməl prinsipidir" fəlsəfəsi bizim üçün prioritet oldu və eyni zamanda da "vətəndaş cəmiyyəti" məfkurəsi yaşam tərzimizdə ən ali dəyərlərdən birinə çevrildi.

Bilirik ki, hüquq eyni ilə dövlət kimi cəmiyyətin müəyyən mərhələlərdə inkişafının məhsuludur və yalnız qarşılıqlı əlaqədə olduğu dövlətlə birgə inkişaf edir, hansıki bu qarşılıqlı əlaqə dövlətsiz fəaliyyət belə göstərə bilmir. Bir sözlə, dövlət hüquq normalarının həyata keçirilməsini təmin edir, hüququ qoruyur, keşiyində durur və mühafizə edir. Məsələ burasındadır ki, yalnız hüququn dövlətə yox, elə dövlətin də hüquqa ehtiyacı var və hüquqa söykənmədən dövlətin normal fəaliyyətindən danışmaq mümkün deyil. Məhz hüquqa söykənən dövlət hüquqi dövlətdir və belə dövlətdə əlbəttə ki, dövlət aparatının fəaliyyəti qanunvericiliyin, yəni hüququn möhkəmləndirilməsini tələb edir.

Sözsüz ki, hüquqi dövlətin formalaşdırılması vətəndaş cəmiyyətinin inkişafı ilə bilavasitə bağlıdır. Vətəndaş cəmiyyəti də hərhansı cəmiyyətin inkişafının müəyyən mərhələsində, yaxud pilləsində insanların birliyinin formalaşmasıdır ki, özündə həmin cəmiyyətin siyasi, sosial, iqtisadi, mədəni və digər sferalarında könüllü yaranan qeyri-dövlət strukturlarını birləşdirir. Eyni zamanda vətəndaş cəmiyyəti azad vətəndaşların, könüllü formalaşmış təşkilat və assosiasiyalarıdır ki, özbaşına və birbaşa müdaxilələri qanunla məhdudlaşdıran özünümüdafiə sferası olaraq tanınır.

Vətəndaş cəmiyyəti haqqında təsəvvürlər uzun yol, uzun tarixi təkamül yolu keçib. Bu barədə fikirlərə Platonun, Aristotelin, Siseronun əsərlərində rast gəlmək mümkündür. Digər yunan-roma mütəfəkkirlərinin əsərlərində də vətəndaş cəmiyyəti barədə fikirlərə təsadüf edilir, lakin bu təsəvvürlərin, fikir və ideyaların inkişafı intibah dövrünə təsadüf edir, geniş şəkildə məhz H.Qrotsinin, T.Hobbun, Ş.Monteskyenin əsərlərində öz əksini tapır. Lakin indiki mənada vətəndaş cəmiyyəti termini yalnız XVIII əsrdən istifadə edilməyə başlayıb. Onu da diqqətə çatdıraq ki, vətəndaş cəmiyyəti burjua dövrünün məhsulu kimi qəbul edilir və insanların təhkimçilikdən azad edilməsi, insanların dövlətin təəbəsindən şəxsi təsərrüfat və məsuliyyət götürməyə hazır olan vətəndaş-mülkiyyətçilərə çevrilməsinin nəticəsi olaraq formalaşıb.

Haqqında qeyd olunan vətəndaş cəmiyyəti dedikdə azad sahibkarlıq və təşəbbüskarlıq mühiti başa düşülür ki, bu cəmiyyətdə dövlət strukturlarından fərqli olaraq tabeçilik əlaqələri yox, məhz hüquqca azad və bərabərhüquqlu fərdlərin rəqabət və əməkdaşlıq münasibətləri üstünlük təşkil edir. Bazar münasibətlərinin, rəsmi hakimiyyətlə eyniləşdirilməyən digər fəaliyyət formalarının sinonimi kimi dərk olunur məhz vətəndaş cəmiyyəti və bu cəmiyyət o insanların demokratik cəmiyyəti hesab olunur ki, orada insanlar, məsələn, istehsal vasitələrinə, pul kartlarına, aksiyalara, gərəkli informasiyaya, intellektə, işçi qüvvəsinə və ümumiyyətlə nəyə isə, malik olurlar. Bir sözlə, vətəndaş cəmiyyəti insan cəmiyyətinin daha şüurlu, daha məqsədəuyğun quruluşu, formasıdır, hansıki burada söhbət sivilizasiyanın yeni mərhələsindən gedir. Vətəndaş cəmiyyətinin ən başlıca elementi olan mülkiyyət şəxsiyyətin və bütün cəmiyyətin azadlığının ilkin şərti kimi qəbul olunur. Bu cəmiyyət açıq, demokratik, antitotalitar, müstəqil inkişaf edən cəmiyyətdir, hansıki burada başlıca yerdə insan, vətəndaş, şəxsiyyət durur və bu da o deməkdir ki, vətəndaş cəmiyyəti insanlar tərəfindən yüksək qiymətləndirilir.

Sadalananlar nəzərə alınaraq, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu, eləcə də demokratik dəyərlərin bərqərar olunması Azərbaycanın həyata keçirdiyi başlıca prinsplərdən hesab olunur. "Respublikamızda hüquqi dövlətin qurulması, demokratik, sivilizasiyalı cəmiyyətin yaradılması, söz, vicdan, eləcə də insan azadlığının, plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəlcədən qəbul etdiyimiz prinsplərdir", deyə Ulu Öndər Heydər Əliyev vətəndaş cəmiyyətinə böyük önəm verib və bu gün də bu cəmiyyətə Ümummilli Liderin davamçısı cənab Prezident İlham Əliyev tərəfindən də önəm verilir. Ona görə ki, hüquqi dövlət və vətəndaş cəmiyyəti demokratiya ilə sıx bağlı anlayışdır, biri olmadan digərindən danışmaq olmaz və azərbaycançılı ideologiyasının yaşaması məhz vətəndaş cəmiyyəti və dövlət qarşısında məsuliyyətdən, hüquqi dövlət quruculuğundan asılıdır. Yetkin vətəndaş cəmiyyəti olmadan, hüquqi, demokratik dövlətdən söhbət gedə bilməz və məhz azad vətəndaşlar şüurlu insan birgəyaşayışını qura, yarada bilər.

***İnam Hacıyev***

---



POLİTOLOQ AÇIQLADI

# "Ən çox uduzan Ermənistan olacaq"

**"Biz artıq ilk dəfə deyil ki, bu cür təxribatlara şahidlik edirik və təxribatların əsasən sülh istiqamətində müəyyən addımlar atıldığı zamana təsadüf etdiyini də görürük. Bu dəfə də eyni şey təkrar olundu". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.**

Onun sözlərinə görə, Brüssel danışıqlarının ikinci raundundan sonra Ermənsitanla Azərbaycan arasında sülh sazişinin imzalanması məsələsi istiqamətində ciddi irəliləyişlərin müşahidə ediləcəyi ehtimalları ortaya çıxan kimi növbəti təxribatın şahidi olduq: "Bu onu göstərir ki, Ermənistan delimitasiya üzrə öhdəliklərini yerinə yetirməkdən yayınır və prosesi pozmaq istəyir. Ermənistanın prosesi pozmaq cəhdlərinə sübut olaraq Paşinyanın iki gün əvvəlki bəyanatını da missal kimi göstərə bilərik. Paşinyan dedi ki, "biz Ermənistan və Arsax xalqlarından xəbərsiz Azərbaycanla heç bir sənədi imzalamayacağıq" və əlavə etdi ki, hər şey öncədən ictimai müzakirədən keçəcək. Bu isə o deməkdir ki, Paşinyan istənilən vaxt ermənilərin Azərbaycanla sülh sazişinin imzalanmasına etiraz etdiyini bəhanə gətirərək danışıqlardan çəkilə bilər. Maraqlıdır ki, son Brüssel görüşündə həm sərhədlərin delimitasiyası, həm komunikasiya əlaqələrinin açılması və həm də Azərbaycanın təklif etdiyi 5 baza prinsip əsasında sülh sazişinin imzalanmasına razılıq verən Paşinyan Moskva səfərindən sonra mövqelərini dəyişib. Bu isə prosesin pozulmasında maraqlı olan tərəfin təkcə Ermənistan deyil, həm də Rusiya olduğunu deməyə əsas verir.

Təbii ki, hər zaman özünü regionun hegemon dövləti kimi aparan, 30 ilə yaxın Qarabağ problemindən istifadə edərək vəziyyəti istədiyi məcraya yönəldən Rusiya indi onun iradəsindən kənarda və faktiki olaraq Avropa İttifaqının vasitəçiliyi ilə aparılan danışıqlarda maraqlı deyil. Xüsusən Şarl Mişelin son günlər həm Ermənistan və Azərbaycan liderləri ilə təmaslarının artdığını da nəzərə alsaq Moskvanın narahatlığı gözlənilən idi. Çünki rəsmi Kreml danışıqların üçtərəfli formatda, yəni başqa sözlə yalnız öz vasitəçiliyi ilə aparılmasını istəyir. Çünki Rusiyanın uzun illər ərzində münaqişə ilə bağlı ənənəvi strategiyası iki tərəf arasında manevrlər edib, özünə maksimum sərf edən nəticəni əldə etmək olub. Rusiya düşünür ki, bu cür strategiya ilə hər iki tərəfi özündən asılı vəziyyətdə saxlamaq mümkündür. İndi isə birdənbirə belə bir imkandan məhrum olmaq təbii ki, Moskva üçün regionda qarşılaşdığı ən arzuolunmaz vəziyyətdir.

Aprel ayının 23-də saat 18:00 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini keçməyə cəhd göstərməsinə də məhz bu kontekstdən baxmaq real vəziyyəti daha dəqiq təsvir etməyə imkan verir. Belə ki, Ermənistan dövlət sərhədinin Azərbaycanın Zəngilan rayonu ərazisindən keçən hissəsində təxribat törətməyə cəhd göstərməsi təsadüf bir məsələ deyil. Yuxarıda da qeyd etdiyim kimi bu təxribat planlaşdırılmış və bilavasitə Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası və sülh prosesi ilə bağlı Brüsseldə əldə olunmuş razılaşmada nəzərdə tutulmuş addımların qarşısının alınmasına yönəlmiş məqsədyönlü təxribatdır. Erməni diversiya qrupunun keçməyə çalışdığı sərhəd xəttinə Rusiya sərhədçilərinin nəzarət etdiyini nəzərə alsaq deyə bilərik ki, təxribata şəraiti Rusiya sərhədçiləri yaradıb və bununla da Moskva "mənim iştirakım olmadan bu regionda heç bir problem həll ola bilməz" mesajını verməyə çalışır.

Lakin kimin hansı təxribatları törətməsindən asılı olmayaraq artıq Birgə Sərhəd Komissiyasının, habelə sülh müqaviləsinin işlənib hazırlanması ilə bağlı işçi qrupunun görüşlərinin yaxın zamanlarda təşkil olunmasına dair razılıq əldə olunub. İndiki mərhələdə prossesin pozulmasından ən çox uduzan ancaq Ermənistan olacaq, çünki bu onlar üçün son şansdır.

Son təxribat və erməni diversant Matirosov Eduard Arturoviçin saxlanılması isə bizə imkan verir ki, həm Brüssel, həm də Moskva qarşısında İrəvanın sərhəd razılaşmasını pozduğu məsələsini qaldıraq və Ermənistanı razılaşmanın icrasına məcbur edəcək addımlar üçün bu faktdan istifadə edək Bu amil isə sülh sazişi yolunda Ermənistana təzyiqləri artırmaq, prosesi daha da sürətləndirmək baxımından Bakının əlini gücləndirə bilər".

***Abutel İlhamqızı***

GEOSİYASƏT+AKTUAL

# Türkiyənin PKK-ya qarşı əməliyyatı: terrora son, regional iqtisadiyyata dəstək

**Türkiyənin kəşfiyyat və zərbə dronları, qırıcı təyyarələri və çoxsaylı artilleriya qurğuları ekspertlərin "PKK-nın qəlbi" adlandırdıqları rayonu hədəfə alıblar**






**Ankara Türkiyə-İraq sərhədlərini PKK terror təşkilatından tamamilə təmizləmək niyyətindədir və bu faktor özünü yeganə dəhlizin tutulması, ardınca isə nəzarətə götürülməsi ilə isbatlayıb. Beləliklə, Ankara 40 ildir ki, PKK-nın Türkiyə ərazilərinə keçərək orada terror aksiyalarını keçirmək cəhdlərinin qarşısını birdəfəlik almaq üzrədir. SİA xəbər verir ki, mövzu ilə bağlı "Middle East Eye" nəşri də türk hərbçilərinə yaxınlığı ilə seçilən mənbəsinə istinadən yazıb ki, artıq qərar qətidir və PKK-nın sonu elə də uzaqda deyil.**

Artıq bu həftədən başlayaraq əməliyyatın ərazisi daha da genişlənibz, Türkiyə İraqın Şimalında sığınan PKK terrorçularına qarşı növbəti hava və quru əməliyyatlarına başlayıb və bu dəfə hədəf terrorçuların silah anbarları, həmçinin infrastruktur obyektləridir.

Türkiyənin Müdafiə Nazirliyi rəsmi məlumatında bəyan edib ki, antiterror əməliyyatları İraqın üç regionunda aparılır, həmçinin əməliyyatlarda kəşfiyyat, təxribat-divresiya, xüsusi təyinatlı dəstələri iştirak edirlər. Türkiyənin kəşfiyyat və zərbə dronları, qırıcı təyyarələri və çoxsaylı artilleriya qurğuları ekspertlərin "PKK-nın qəlbi" adlandırdıqları rayonu hədəfə alıblar. Bu rayonun Kandil dağları deyilən ərazilərdən daha əhəmiyyətli olduğu da hərbi ekspertlər tərəfindən bildirilir.

## Tam nəzarətin təmin olunması








"Pençe-Kilit" adlandırılan antiterror əməliyyatı məhz ard-arda həyata keçirilmiş terror olaylarından sonra keçirilməyə başlandı. Əsas məqsəd isə terrorçuları Türkiyə sərhədlərindən cənuba tərəf sıxışdırmaqdan və məhv etməkdən ibarətdir.

"Əməliyyatın hədəfi kifayət qədər aydındır: Bəlli rayonlarda PKK-nın bütün düşərgələrini məhv etmək və bazalar yaratmaq, bununla da Türkiyə-İraq sərhədlərini izolə etmək", deyə hərbi ekspertlərdən biri qeyd edib. Mənbə onu da bildirib ki, Zap rayonu yeganə regiondur ki, PKK terrorçuları öz adamlarını və silahlarını məhz oradan Türkiyə ərazisinə keçirirlər. Və əgər Ankara əməliyyatlarını uğurla başa çatdırarsa, bu zaman türk xüsusi təyinatlıları İraq-İran sərhədindəki Kandil dağında PKK-nın nəfəsini tamamilə kəsə biləcək.

ABŞ-ın Dövlət Departamentinin siyasi planlama şöbəsinin sabiq əməkdaşı, geosiyasət üzrə ekspert Riç Autzen isə hesab edir ki, son illər ərzində türk ordusu çox peşəkarlaşıb və onun epikerovkası daha da yaxşılaşdırılıb. İndi hərbçilər dağlarda, kənd və qəsəbələrdə partizan müharibəsi aparan PKK-ya qarşı ciddi təhlükə hesab olunurlar. "Bir neçə quru və hava güclərinin, həmçinin PUA-larının vasitəsi ilə öz mövqelərini gücləndirən türk silahlı qüvvələri manevr etmək, çətin sədləri aşmaq kimi maneələri asanlıqla dəf edir, PKK silahlılarını aşkarlayır və zərbələr endirirlər", deyə Riç Autzen bildirib.

<u>PKK liderlərindən Duran Kalkanın təlaşdan doğan iddiaları:</u> **"Biz metropollarda, iri şəhərlərdə, səhra və dağlarda aktiv işləyəcəyik"**

Türkiyə, ABŞ və Aİ PKK-nı dinc insanları qətlə yetirdiyinə görə terror təşkilatı elan ediblər. Sonuncu hərbi əməliyyatlar isə Türkiyə Respublikasına qarşı 40 ildir davam edən terrora olan müvafiq və bəlkə də birdəfəlik cavabdır.

Bu arada, PKK-nın mərkəzi komitəsinin liderlərindən olan terrorçu Duran Kalkan xarici medialardan birinə verdiyi müsahibəsində, əslində, daxilindəki təlaşını və qorxusunu gizlədə bilməyərək iddia edib ki, onlar müharibəni Türkiyənin ərazisinə keçirəcəklər və s. "Biz metropollarda, iri şəhərlərdə, səhra və dağlarda aktiv işləyəcəyik", deyə o terror hədələri ilə çıxış edib.

O, həmçinin Kürdüstan Demokratik Partiyasını (KDP) və İraq Kürdüstanı hökumətini idarə edən partiyanı Türkiyəyə göstərdikləri dəstəyinə görə ittiham edib. Lakin onun sözlərinə görə, KDP hələ ki, PKK ilə birbaşa toqquşmalardan ehtiyat edir.

## Eskalasiya gərginliyi

Yuxarıda da qeyd etdiyimiz kimi, son aylar Türkiyənin İraqın şimalında həyata keçirilən hərbi əməliyyatları nəticəsində PKK terrorçuları cənuba tərəf sıxışdırılıblar və ötən həftə İraq Kürdüstanının regional hökumətinin lideri Məsrur Bərzani Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüş keçirib və sabitliyin, təhlükəsizliyin təminatı istiqamətindəki situasiyanı müzakirə edib və əməkdaşlıq perspektivlərini müzakirə edib.

Türkiyənin hərbi dairələrinə yaxın mənbənin bildirdiyinə görə, Ankaranın PKK-ya qarşı əməliyyatı İraq Kürdüstanı üçün sərf edicidir, belə ki, bu region Kərkük-Ceyhan neft borusunun təhlükəsizliyini təmin edir, habelə KDP-nin PKK qarşısındakı mövqeyini möhkəmləndirir.

Digər tərəfdən, Rusiyanın Ukraynadakı hərbi əməliyyatlarının davamı İraq Kürdüstanında mövcud olan qaz ehtiyatlarını daha çox əhəmiyyətli edir. Ankara və Ərbil hazırda Ankara ilə qazın əldə edilməsi və Türkiyə üzərindən Avropaya nəql edilməsi mümkünlüyünü nəzərdən keçirirlər. Ancaq buna rəğmən, tərəflər bir sıra siyasi və texniki çətinliklərlə də qarşılaşırlar.

"Bərzani PKK-nın İraq Kürdüstanının sabitliyinə verə biləcəyi təhlükəsini, bir neçə onilliklər boyunca müəyyən dərəcədə əldə edilmiş sosial-iqtisadi tərəqqiyə zərər vuracağı, Türkiyənin Qərblə münasibətlərinə də xələl verəcəyi ehtimalını anlayır", deyə Autzen bildirir və İraq Kürdüstanının mövcud lideri Məsrur Bərzaninin, eləcə də onun sələfi Məsud Bərzaninin narahatlıqlarını başa düşür. Onun sözlərinə görə, qazın effektli şəkildə əldə olunması və nəql edilməsi çətin olsa da, sərfedicidir. Bundan əlavə, Avropa öz enerji mənbələrinin diversifikasiyasını əldə etmək imkanını qazanacaq. Belə ki, artıq İraqın kürdlər yaşayan regionunda neft və qaz kəmərləri mövcuddur, bu baxımdan, yenilərinin tikintisi və bu sahənin genişləndirilməsi mümkün görünür.

Bütün bunlar İraq Kürdüstanına müsbət proqnozlar versə də, Ankaranın İraqın Şimalında gerçəkləşdirdiyi antiterror əməliyyatlarının əsas qayəsi ümumiyyətlə, həm Türkiyədə, həm də İraqda, bütövlükdə isə regionda PKK terrorunun birdəfəlik nəfəsini kəsməkdən ibarətdir. Məhz bundan sonra regionun iqtisadi rentabelliyini daha rahat və geniş şəraitdə istifadə etmək, iqtisadi üstünlüklər əldə etmək mümkün olacaq.

***Rövşən RƏSULOV***

# F e l y e t o n

## GMOlar

**İllərdir dünyada bir məsələ var, ölüm, ya qalım məsələsidir. Rəhmətlik Molla Nəsrəddin demişkən, bu məsələ təzə deyil, köhnədir, ancaq o dünya ilə əlaqəsi çox olduğu üçün dedik yenidən gündəmə gətirək, görək də, bəlkə bir nəticəsi olar.**

Molla Nəsrəddin dövründə teleqraf, filan vardı, dərd yarı idi. Camaat gileygüzarını, söz-sovunu, təbrikini, təşəkkürünü o teleqrafnan edirdi. Sən də onu alıb oxuyurdun, fikrini bildirirdin. Yəni ən azından hadisələrdən xəbərdar olurdun.

İndi bizdə belədir ki, telefon, televizor, internet, sosial şəbəkələr var, nə qədər istəsən, fərqli-fərqli, "maraqlı-maraqlı". İnsanlar da o sosal şəbəkələrin içərisində günlərlə, telefonlarda başıaşağı saatlarladılar. Yazırsan ki, problem budur, ay camaat, təhlükə budur, ay oxudu ay camaat. Axı gəl görək, camaatın nəyinə lazımdır, durub biz qəzet əhlinin yazılarını oxuya. Onlar yazı formasını dəbdən düşmüş hesab edirlər. Bir də ki, gəlin əyri oturub düz danışaq da. Deməyə də utanıb yerə keçirəm, videolar var ki, onları qoyub mənim yazılarını oxuyacaqlar, yoxsa sənin? Videolar var ki, onu izləyib ancaq gülür insanlar, könülləri açılır. Kimdir mənim, sənin yazılarına vaxt ayıran, oxuyan?

İndi belədir də, müasir dövrdür, müasir də tələbləri var. Açın "İnstagram"ından tutmuş "Fecebook"una, "Tiktok"una qədər, görün o videoların altında nə qədər şərhlər var. Bir də paylaşdığınız bir yazı göstərin ki, bir neçə ziyalı oxucudan başqa kimsə oxuya, sənə yaza ki, Allah köməyin olsun, sən ki, elə bizim dərdsərimizdən yazmısan. Belədir də, durub camaata ağıl öyrətməyəcəyik ki. Onlar özləri bilirlər ki, o videolara baxmaq lazımdır, bizim yazdıqlarımızı isə oxumaq lazım deyil.

Belə deyirəm qəzetçilər narahat olar ey birdən. Narahat olmayın, onlar televizora, filana da baxmırlar ki, bizim yazdıqlarımızı oradakı jurnalistlərdən eşidələr barı. Söhbət qəzetdən, jurnaldan, televiziyadan getmir, söhbət insanların seçimindən gedir.

Ola bilər ki, çox böyük təsadüflər nəticəsində bu yazını kimsə oxuyar, ona görə də mətləbə keçim ki, sonra bəhanə etməsinlər ki, sən də çox danışırsan ey. Yazıram, sən Allah oxuyun. Xahiş edirəm oxuyun. Bu, sıradan bir məsələ deyil, ölüm-qalım məsələsidir.

Yaxşı, deyək ki, ay camaat, gözlərinizdən vaz keçmisiniz, onları qurban vermisiniz telefona, internetə. Özünüz bir yana, ta azyaşlı uşaqlarınız da eynəklə gəzir. Hələ yaxın gələcəkdə nələr baş verəcək, bunu da görəcəksiniz. Gəlin bir az da nə yediyinizdən danışaq. Nə yeyirsiniz?

Deyəcəksiniz ki, sənə nə var. Heç verilməli sualdır, nə yeyirsiniz? Nə yeyəcəyik ki, dükan-bazar doludur ərzaqla, tərəvəzlə, bir-birindən gözəl, cəlbedici. Gedib alıb gətiririk, doldururuq soyuducuya, yeyirik. Suala bax, nə yeyirsiniz. Yox bir, gəlin bu işimizə də qarışın. Kitab oxumursunuz, qəzet oxumursunuz, Azərbaycan filmlərini izləmirsiniz, uşağınız belə geyindi, küçədə ucadan danışdı, məktəbdə özünü apara bilmədi, özünüz çox seriala baxırsınız, övladınızın tərbiyəsi ilə məşğul olmursunuz, dediniz deyə bildikcə, indi də keçmisiniz nə yeməyimizə? Gördüyünüz kimi yeyirik ki, ayaq üstündəyik də. Yeməsəydik çox yəqin ki, o dünyada olardıq. Ta hər işə də qarışmayın ki? Bəsdir də, başımıza ağa kəsiləcəksiniz? Onu etməyin, bunu etməyin, belə olmayın, niyə belə olmalıdır? Bezdirirsiniz ey adamı. İndi də nə yeyirsiniz. Nə yemirik ki, şükür Allaha.

İndi ki, bu qədər maraqlısınız, buyurun, görün nə yeyirik. Necə deyərlər, gir bazara, quş südü tap. Bazarlar doludur ətlə, balıqla, toyuqla, yumurta ilə. Kənd toyuğu ayrı, broyleri ayrı, budu, qanadı, içalatı, yumurtası ayrı. Bazar dolur, boşalır, istehsal var da, həm də sürətli. Yoxsa bu qədər tələbatı çatdırmaq olar? Kartof, soğan, sarımsaq, badımcan, bibər, pomidor, xiyar, göyərti, nə bilim, hər cür tərəvəz var. Bazar- market doludur qışda yayda yetişən, yazda payızda yetişən meyvə-giləmeyvələrlə. İlboyu piştaxtalardan əskik olmayan tərəvəzlərlə. Göz istəyir ki, gözəlliklərinə baxsın. Heç yayda elə tərəvəzlər olmur. Adamın üzünə gülür. Qışboyu heç turşu tutmağa ehtiyac yoxdu, təzə pamidor, xiyar, rəngbərəng bibərlər, göyərti istənilən qədərdi. Qatıq, süd, pendir, şor, kərə yağı nə qədər süd istəsən. Maşallah, görün nə qədər süd istehsal olunur ki, süd məhsulları ayaq tutub yeriyir.

Marketlər doludur ərzaqla. Nə istəsən ala bilməzsən? Yerlisi də var, xaricdən gələni də. Biz də qədrimizi bilirik, xaricdən gələni alırıq. Niyə? Çünki insanı yaxşı qidalanmaq yaşadır. Niyə də ki, almayaq, bir dəfə gəlirik dünyaya. Nə üçün süfrəmizə istədiyimiz məhsulu qoymayaq? Bunun düyüsü, mərciməyi, noxudu var, kərə, ayçiçək, qarğıdalı yağları var. Hansının rəngi gözəldir, görünüşü böyükdür, xaricdən gəlib, ondan alırıq. Yağlar da ki, həm təmiz, keyfiyyətli, həm də qiymətləri münasib. Məsələn, kərə yağı var ki, qiyməti 5 manata, ayçiçək, qarğıdalı yağları var 6-8 manata. Belə götürəndə 1 kiloqram kərə, 1 litr ayçiçək, qarğıdalı yağları üçün heç xammalı bu qiymətə almaq olmaz. Çox razıyıq qiymətlərdən də, keyfiyyətdən də. Şükür Allaha, süfrəmiz də ki, doludur.

Vallah cavabımı necə aldımsa, nitqim qurudu. Düşünürəm ki, düz deyirsiniz, həqiqəti deyirsiniz. Haqlısınız. Əlbəttə, insan yeməsə ölər.

Ancaq mən yuxarıda söylədiyim kimi, ölüm-qalım məsələsindən danışacaqdım. Adı GMO idi. İndi ki, siz hər məsələni özünüz çox yaxşı bilirsiniz, bazar-marketlərdən, məhsulların keyfiyyətindən çox razısınız, çox vaxt sözümüzdən də inciyirsiniz, o söhbəti heç açmıram. Bircə yazı qaydaları xatirinə bu ixtisar sözün mənasını yazmaq istəyirəm: Genetik modifikasiya olunmuş məhsullar. Vəssalam.



***Mətanət MƏMMƏDOVA***

## "Ermənistanın bu kimi təxribatlarının qarşısı alınacaq"

"Ermənistanın sülh prosesini pozması, əldə olunan Brüssel razılaşmalarına qarşı etdiyi təxribatçı hərəkətlər birbaşa Ermənistanın siyasi-hərbi hakimiyyəti məsuliyyət daşıyır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.



Onun sözlərinə görə, ayın sonunda ikitərəfli sərhədlərin delimitasiyası və demarkasiyası komissiyasının yaradılması gözlənilirdi: "Bu komissiyanın yaradılması əvəzinə erməni diversantları sərhəddə təxribatlar törətməyə çalışır. Təbii ki, Azərbaycan bunun layiqli cavabını verdi və diversiya qrupu saxlanıldı. Göründüyü kimi, Ermənistan öz üzərinə götürdüyü öhdəliklərdən və proseslərdən açıq-aydın şəkildə yayınmağa cəhd göstərir. Digər tərəfdən burada Rusiyanın da fəaliyyətini istisna etmirəm. Bu cür təxribatçı hərəkətlər davam edərsə, o zaman sərhəddə lokal toqquşmalar ola bilər".

Politoloq fikirlərinə davam edərək həmçinin qeyd edib ki, bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin birbaşa telefon danışığı oldu və bu məsələ də müzakirə olundu: "Görünür bu danışıqlar zamanı sərhədlərin delimitasiya və demarkasiya prosesi də reallaşıb. Amma, Rusiya prosesə mane olmaq üçün sabotaj addımlar atır. Məhz Brüssel görüşündən sonra Paşinyanın Moskvaya səfəri və ondan sonra bu kimi təxribatçı hərəkətlər də Rusiyanın planın tərkib hissəsidir. Amma Ermənistandan da çox şey asılıdır. Ermənistan siyasi iradə göstərməli və Brüssel vasitəsiləçiliyindən imtina etməməlidir. Bu kimi hallar davam edərsə, təbii ki, dövlət sərhəddində lokal hərbi toqquşmalar baş verə bilər. Bu da Ermənistanın əleyhinədir. Çünki Azərbaycan bütün bu proseslərə hazırdır və bundan əlavə Azərbaycan diplomatik müstəvidə də Ermənistanın təxribatçı hərəkətlərinə qarşı Avropa İttifaqını məlumatlandırıb. Göründüyü kimi, prosesi pozan Ermənistan tərəfidir. Ermənistanın bu kimi təxribatlarının bütün istiqamətlərdə qarşısı alınacaq".

***Arzu Qurbanzadə***

## "Ana dilinin qayğısına qalmayan millətin özü də məhv olmağa məhkumdur"

**EKSPERT DANIŞDI**

"Dil bir millətin varlığını təstiq və sübut edən ən önəmli faktorlardan biridir. Əgər bir millətin öz dili yoxdursa, yaxud da ki, millət öz dilinin qayğısına qalmır, onu qorumursa, həmin millətin özü də məhv olmağa məhkumdur". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət bildirib.



Onun sözlərinə görə, bu baxımdan dil istənilən millət üçün ən önəmli mövcudluq faktorlarından biridir: "Amma təəssüflər olsun ki, bəzi insanlar hətta deyərdim ki, bir çox insanlar bunun fərqinə varmırlar. Ana dili ilə bağlı çox məsuliyyətsiz davranır, dili arxa plana keçirirlər. Xarici dilləri isə ön plana çıxarmağa çalışırlar. Hətta bəzi insanlar var ki, onlar Ana dilimizi bir kənara buraxaraq, övladlarını xarici dillərdə oxudurlar. İddia da edirlər ki, xarici dillərdə oxuyanlar daha vətənpərvər olacaq, daha dövlətə bağlı olacaqlar. Bunlar təbii ki, yanlış fikirlərdir. Bir millətin övladı öz Ana dilini bilməzsə, Ana dilində təhsil almaz və öz doğma dilini mükəmməl səviyyədə mənimsəməzsə, gələcəkdə millətə xeyirli övlad olmaz. Bu baxımdan dil önəmli faktordur. Millətin mövcudluğunun səbəblərindən biri dildir. Eyni zamanda bir fərdin öz millətinə bağlılığını təmin edən əsas faktorların da önündə gedir. Bu baxımdan Azərbaycan dövləti Ana dilimizin dövlət dili səviyyəsində mənimsənilməsi bütün mümkün vasitələrdən istifadə edir. Azərbaycan dövləti şəxsən cənab Prezident İlham Əliyev, sağlığında Ulu Öndər Heydər Əliyev nahaqdan zaman-zaman Ana dilimizə, dövlət dilinə xüsusi qayğı ilə bağlı fikirlər bildirmirdilər. Günü bu gün də cənab Prezident İlham Əliyev bütün varlığı və gücü ilə Ana dilimizin ayaqda tutulmasına çalışır və Azərbaycan dilinin yaşadılmasında fərdi, şəxsi örnəyi ilə hamıdan öndə gedir. Düşünürəm ki, hər kəs belə örnəyə söykənməlidir. Hər kəs məhz Ana dilimizə diqqət və qayğı ilə yanaşmalıdır".

***Səbinə Hüseynli***

TƏRS BAXIŞ+ÖZƏL





# Qarabağda növbəti təxribata cəhd: erməni-fransız planları RSK kontekstində

***Xatirinizdədirsə ötən ilin sonlarında, dekabr ayında Fransa prezidentliyinə namizədliyini irəli sürmüş fransalı siyasətçi Valeri Pekress Qarabağa qanunsuz səfər etmişdi. Məhz onda rəsmi Bakı sərt şəkildə Pekressin avantüraçı addımına münasibətini göstərdi, Fransanın Azərbaycandakı səfiri XİN-ə çağırıldı və ona etiraz notası təqdim edildi.***

Vurğulandı ki, Fransadan olan bir qrup siyasətçinin mövcud addımı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı hörmətsizlik nümayiş etdirir, eləcə də Azərbaycan-Fransa ikitərəfli münasibətlərinə zərər vurur, o cümlədən, Fransanın regiondakı nüfuzuna da xələl gətirir.

Lakin burada daha bir məqam müvəqqəti olaraq Qarabağda yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin məsuliyyətsizliyi və ya dolayı cəhdləridir. Daha dəqiq desək, əgər Pekressin qanunsuz səfərində Fransa və Ermənistan tərəfi rol oynayıbsa, buraya RSK-nı da əlavə etmək lazımdır. Çünki fransız siyasətçisini Xankəndiyə Laçın dəhlizindən buraxan da məhz RSK olub!

## Prezident İlham Əliyev: ”Laçın dəhlizi bizim nəzarətimiz altındadır”

Bununla əlaqədar 2022-ci il, yanvarın 12-də Azərbaycan jurnalistlərinə müsahibə verən Prezident İlham Əliyev də ayrıca münasibət bildirib. O qeyd edib ki, hər dəfə belə qanunsuz səfərlər həyata keçirilərkən Rusiya tərəfinə rəsmi qaydada pretenziyalar bildirilir. Dövlətimizin başçısı onu da qeyd edib ki, müdafiə nazirimiz dəfələrlə öz həmkarına məktub ünvanlayaraq RSK missiyasının rəhbərliyi ilə bağlı iradlarını çatdırıb və analoji addımlar Valeri Pekressin sonuncu səfərindən sonra da atılıb.

”O ki qaldı qıcıq doğuran məsələlərə, əlbəttə, bu, bizi də qıcıqlandırır və dəfələrlə belə qanunsuz səfərlər baş verdikdə rəsmi qaydada Rusiya tərəfinə irad bildirilir. Həm müdafiə nazirimiz öz həmkarına məktublar göndərib dəfələrlə, həm sülhməramlı missiya rəhbərinə irad bildirilir və Valeri Pekressin son qanunsuz səfəri ilə bağlı da eyni addımlar atılmışdır”, deyə ölkə rəhbərimiz müsahibəsi əsnasında deyib. SİTAT: ”Bizə belə bir cavab verildi ki, biz görməmişik, bilməmişik, diqqətdən kənarda olub, o, hansısa adi bir maşında gəlib və sair. Halbuki, əlbəttə, bu, inandırıcı deyil və mən necə var elə də deməliyəm, müsbəti də, mənfini də. Bu, təşkil edilmiş səfər idi, çünki Valeri Pekres istədiyi müşayiətlə gedə bilməyib, çox məhdud sayda gediblər. Onun yanında Fransanın keçmiş xarici işlər naziri, avrokomissar Barnye, bir deputat olmuşdur. Onlar gizli şəkildə oraya getdilər və qayıtdılar. Qayıdandan sonra artıq xəbər çıxdı,



çünki yəqin ehtiyatlanırdılar ki, biz Laçın dəhlizində onları dayandıracağıq. Çünki əgər xəbərimiz olsaydı ki, onlar oradadırlar, biz onları geri buraxmayacaqdıq, birmənalı şəkildə. Laçın dəhlizi bizim nəzarətimiz altındadır”, deyə dövlətimizin başçısı müsahibəsi zamanı xüsusilə vurğulamışdı.

## Qarabağa təxribatçı səfər edəcəyini deyən Paris meri Ann İdalqo Fransada keçirilən prezident seçkilərinin birinci turundaca rüsvayçı məğlubiyyətlə qarşılaşıb - cəmi 1,75%!

Beləliklə, fransalı siyasətçilərin ermənilərə olan aşırı məhəbbətləri, eləcə də ”miatsum” adlı miflərinə dəstək göstərmələri bizləri daha ayıq-sayıq olmağa tərəf istiqamətləndirməkdədir. Özü də yalnız fransız siyasətçiləri ilə bağlı deyil, həm də RSK-nın fəaliyyəti də burada daim diqqətdə saxlanılmalıdır ki, bundan sonra bir daha ”bilmədik”, ”xəbərimiz yox idi” tipli bəhanələri ilə özlərini ”təmizə” çıxarmasınlar.




Məsələ ondadır ki, aprelin 22-də Paris şəhərinin meri Ann İdalqo (bu şəxs qatı ermənipərəstdir və Fransada keçirilən prezident seçkilərinin birinci turundaca rüsvayçı məğlubiyyətlə qarşılaşıb - cəmi 1,75% səslə rəqabətdən kənara atılıb)

Qondarma ”erməni soyqırımının 107-ci ildönümünə” qatılıb və Fransanın erməni təşkilatları koordinatorluğunun nümayəndə heyətini qəbul edib. Mer, görüşü zamanı ənənəvi ”erməni əzabkeşliyi və məzlumkeşliyi” barədə necə deyərlər, çənə döyüb, ”böyük xatirə anı” haqqında çərənləyib və nəhayət Azərbaycanın Qarabağ regionuna gəlib-çıxan bir ifadə işlədib.

”Paris şəhər şurası Qarabağın ”müstəqilliyini” tanmağa hazırdır və müharibə vaxtı psixoloji travmalara məruz qalmış veteranlara maliyyə yardımları göstərmək arzusundadır. Mənim qarşıdakı vaxtlarda Ermənistana və Qarabağa (???!!!-R.R.) səfərim gözlənilir”, deyə Ann İdalqo sərsəmləyib. Göründüyü kimi, minimum yaxın 5 illik müddətdə dövlətə başçılıq etmək arzusundan məhrum olan Ann İdalqo hələ də erməni dəstəyindən yararlanacağı fikrindədir. Çünki qarşıdan gələn bələdiyyə seçkilərində də təmsil etdiyi siyasi təşkilatın qələbəsi onun üçün vacibdir. Ona görə də Parisin erməni küçələrindəki erməniləri öz əlində saxlamağa çalışır, bu vasitə ilə Azərbaycanın Qarabağ regionuna təxribatçı səfər edəcəyini bildirir.

## Prezident İlham Əliyevin də vurğuladığı kimi, daha sonra ”bilməmişdik”, ”məlumatsız idik” kimi boyunqaçırmalar olmamalıdır!

Və belə olan halda artıq o özünün Qarabağa gedən yolunu bəri başdan kəsmiş olub. Artıq onun bəyanatı Azərbaycanın diqqətindədir və əsla qələt edib Qarabağa getmək imkanı ona verilməyəcək, əlbəttə ki, digər bir məsələ də diqqətdə saxlanılmalıdır - RSK-nı bəri başdan məlumatlandırmaq. Yəni Prezident İlham Əliyevin də vurğuladığı kimi, daha sonra ”bilməmişdik”, ”məlumatsız idik” kimi boyunqaçırmalar olmamalıdır!

Pekressin səfərində belə boyunqaçırmalar olsa da rus sülhməramlıları həmin vəziyyətdə də özlərini gülünc vəziyyətdə qoymuşdular. Sanki Pekress iynədir və Laçın dəhlizindən keçərkən gözəgörünməz olub və s...

Beləliklə, RSK komandanlığı bundan sonra gözlərini dörd açıb, qulaqlarını Laçın istiqamətində şəkləməlidirlər və Bakının icazəsi olmadan hətta qarışqaları belə ərazimizə buraxmamalıdırlar. Əks halda günahlarını da özlərində axtarmalıdırlar...

**R.RƏSULOV**

# Tofiq Yaqublunun məqsədi nədir

**Yaxud, AXCP sədri Əli Kərimli-Gültəkin Hacıbəylini hədəfə almağın arxasında dayanan maraq - "Milli Şura" adlı ölü qurumda siyasi ölülərin savaşı gözlənilir**



SƏS YAZISI

Demək olar ki, yox səviyyəsində olan psevdomüxalifət qurumun - ”Milli Şura” adlı ölü təşkilatın daxilində yeni parçalanma situasiyası yaranıb və bu situasiyanı yaradan son vaxtlar ayrı-ayrı qalmaqalları ilə yadda qalan müsavatçı funksioner Tofiq Yaqubludur. Onun mobil telefon danışığı vasitəsi ilə apardığı siyasi müzakirədə AXCP sədri Əli Kərimlini hədəfə alması və AXC-Müsavat iqtidarı zamanı Elçibəyə qarşı xəyanətkar fəaliyyət göstərməsi, onun impiçmenti ilə bağlı fəaliyyət göstərməsini əks etdirən fikirlər bildirməsi göstərdi ki, artıq bu ölü qurumda ox yaydan çıxıb və hətta ”liderlik” uğrunda savaşa baş qaldırıb.

Düzdür, bu təzə fakt deyil və çox insan Əli Kərimlinin Elçibəyə qarşı hansı mənfur və iyrənc planlar vasitəsi ilə kampaniyalar aparmasından məlumatlıdır. Hətta prezidentliyi dövründən sonra ”Yurd” adlı qruplaşması vasitəsi ilə mərhum Elçibəyi ölüm həddinə çatdıranın da Əli Kərimli olduğu hər kəsə gün kimi aydındır. Sadəcə, həmin faktın məhz Tofiq Yaqublunun dili ilə səslənməsi artıq başqa bir reallıqları ortaya çıxarmış olur...

## Tofiq Yaqublu üçün əsas prinsip - tutar qatıq, tutmaz ayran...

O cümlədən, Tofiq Yaqublunun ”Milli Şura”nın koordinasiya şurasının üzvü Gültəkin Hacıbəylinin də hədəfə alınması bütövlükdə oradakı ”iki söz sahibinin” neytrallaşdırılmasına tərəf hesablanmış addım kimi qiymətləndirilə bilər. Onsuz da elektorat cəhətindən yox səviyyəsində olan bir qurumun yalnız ilişib qalan val kimi eyni mövzular ətrafında fırlanması isə əslində cəmiyyəti tamamilə bezdirib. Və əgər ”Milli Şura”da kimin ”lider” olmasına baxmayaraq bu qurum haqqında hansısa ciddi fikir, düşüncə irəli sürmək qeyri-mümkündür.

Son zamanlar gah mitinq keçirmək, gah küçə yürüşləri təşkil etmək sarıdan da uğursuzluğa düçar olan bu ”qurumun” sözün əsl mənasında fatihəsinin oxunduğu göz önündədir.

Başqa tərəfdən, nəzərə alsaq ki, Tofiq Yaqublu Müsavat partiyasının funksioneridir və onun Gültəkin Hacıbəylinin təmsil etdiyi partiyası haqqında da mənfi fikir bildirməsinə sərt münasibət göstərməsi belə qənaətə gəlməyə zəmin yaradır ki, müsavatçı funksioner də ”Milli Şura”nı tərk etmək istəyindədir. Sadəcə, o, AXCP sədri Əli Kərimlini və ona daha çox mane olan Gültəkin Hacıbəylini kənarlaşdırmaq, ”liderliyi” ələ keçirmək niyyətini güdür, yəni tutar qatıq, tutmaz ayran prinsipi ilə... Və bu alınmazsa, əlbəttə ki, onun bu ”qurumu” tərk etməkdən başqa çarəsi də qalmır.

Qarşıda isə Əli Kərimlinin Tofiq Yaqublunun onun haqqında ifşaedici fikir səsləndirməsinə görə adekvat addım atması mümkünlüyü görünür. Yəni Tofiq Yaqublunun ”süddən çıxmış ağ qaşıq” olmadığını sübut etməkdən ötrü hər halda AXCP sədrinin də əlində kompromatların olması kifayət qədər mümkündür. Məhz bu baxımdan, bizi ölü və fatihəsi oxunmuş ”Milli Şura” daxilində siyasi ölülərin savaşı səhnələri gözləyir. Videonu isə aşağıdakı linkdən izləyə bilərsiniz:

https://www.youtube.com/watch?v=tNsmBY-REvg

**Rövşən**

# Aleksey Fenenko: "Putin Paşinyanı üçtərəfli razılaşmaları yerinə yetirməyə məcbur edir"

"Rusiya-Ermənistan bəyanatında biolaboratoriyalar və üçüncü ölkələrin orada fəaliyyət göstərməsinin qeyri-mümkün olması ilə bağlı bir məqama diqqət yetirmək yerinə düşər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko "Moskva-Baku" platformasına verdiyi müsahibəsində Rusiya prezidenti və Ermənistanın baş nazirinin qəbul etdiyi bəyanatın detalları barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Aleksey Valeryeviç, bəyanatda Qarabağ nizamlanması ilə bağlı bir sıra məqamların qeydə alındığına diqqət çəkilir: həm Putin-Əliyev-Paşinyan üçtərəfli formatının aktivləşdirilməsi, həm də nəqliyyat blokunun açılması üçün işçi qrupunun aktivləşdirilməsi və iqtisadi əlaqələrin, sərhədləşdirmə komissiyalarının sürətlə yaradılmasına diqqət.*

- Bu o deməkdir ki, Putin növbəti dəfə Paşinyanı Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı bütün bu razılaşmaları təsdiqləməyə məcbur edib. Yəni, görünür, Rusiya tərəfi Ermənistan rəhbərliyinə və onun mövqeyinə o qədər əmindir ki, o, hələ 2020-ci ilin noyabrında əldə edilmiş razılaşmanın mahiyyətini təsdiq etməyi daim tələb edir. Axı Ermənistan cəmiyyətində qisas lehinə olan əhval-ruhiyyə hələ də güclüdür. Və Paşinyan indi Moskva tərəfindən yaxın gələcəkdə əldə olunan razılaşmaların yeganə təminatçısı kimi qəbul edilir. Əks halda ondan əldə olunan razılaşmaların təsdiqini daim tələb etməyə əsas olmazdı.

Bundan əlavə, bu, Qərbin məsələ ilə bağlı çılğın fəallığına cavabdır. Fransızlar Ermənistanı tamamilə NATO-ya çəkmək istəyirlər. Amerikalılar da istəyirlər, amma başa düşürlər ki, fransızların şansları daha çoxdur, axı Fransada nəhəng erməni diasporu var. Ona görə də onlar Ermənistanı KTMT-dən NATO-ya çevirə biləcəklərinə dair bütün ümidləri əsas tərəfdaş kimi Fransaya bağlayırlar. İndi Ukrayna ilə bağlı münaqişənin xarakterini nəzərə alsaq, bu, onlar üçün xüsusilə əlverişli olardı. Əslində, o zaman Rusiya üçün hansısa ikinci cəbhə açılacaq, ya da ən azından Zaqafqaziyada çox ciddi problem yaranacaqdı ki, Moskva əsas diqqətini ona yönəltməli idi.

Ukraynada xüsusi əməliyyat başa çatdıqdan sonra Rusiya Qarabağ istiqamətində fəallaşacaq, ona görə də amerikalılar və fransızlar cəhd etməyə tələsirlər, Moskva isə Transqafqazdan ciddi şəkildə yayınmayıb proseslərə israrla təsir göstərir. Qərb indi Rusiyanın Ukraynada bataqlığa düşməsini gözləyir. Əməliyyat demək olar ki, iki aya yaxındır ki, davam edir və Qərbdə hesab edirlər ki, əgər bu, daha, deyək ki, altı ay davam etsə, o zaman Rusiya Federasiyası sadəcə olaraq tab gətirməyəcək. Qərb belə bir zəifləmə strategiyasına stavka edir.

*- Bəyanatda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsində Rusiyanın potensial vasitəçiliyini təsbit etməkdən başqa çox şey var, Bakı və İrəvan tərəfdən isə bir neçə aydır ki,*





*sülh sazişi barədə söhbətlər eşidilir. Niyə bu maddə bəyanata daxil edilməyib?*

- Çünki Paşinyan öz radikallarından qorxur. Yəqin ki, buna görə bəyanatda bu bəndi qeyd etməyiblər. Onun Rusiyadan danışıqların sərfəli nəticəsi ilə qayıtması lazım idi. Nəinki, radikal revanşist qüvvələrə daha da od vuracaq nəticələrlə. Müxalifətin Paşinyanın zəifliyi kimi qəbul etdiyi bəyanatda Qarabağın statusu məsələsinə toxunulmayıb. Bu o deməkdir ki, Paşinyan Putinin bu şərtindən keçə bilməyib. Bu isə o deməkdir ki, sülh müqaviləsi məsələsi açıqlansaydı, bu, Ermənistanın başçısına zərbə olacaqdı.

Əgər Paşinyan Rusiya ilə bağladığı bəyanatda Azərbaycanla sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirsəydi, bu, kifayət qədər ciddi görünərdi, bu, Qərbə sərfəli deyil, sonra Ermənistan küçələrində etiraz dalğası daha da yüksələrdi və bu qüvvələr onun istefasını daha qəzəblə tələb edəcəkdi. Revanşistlər onu hakimiyyətdən salmağa çalışacaqdılar. Onlar onsuz da bunu edirlər, amma mümkün olduğu qədər, şiddətlə deyil.

*- Minsk qrupu, deyəsən, son vaxtlar dağılıb. Lakin eyni zamanda, Paşinyan danışıqlarda qrupun vasitəçiliyində israr etməkdə davam edir və ikitərəfli bəyanatla bağlı xəbərdə aşağıdakı ifadə qeyd edilib: "Onlar təcili humanitar vəzifələrin və Dağlıq Qarabağ nizamlanmasının diplomatik vasitələrlə tezliklə həllinin vacibliyini vurğuladılar. Bu kontekstdə ATƏT-in Minsk Qrupunun həmsədrliyinin potensialından və təcrübəsindən onun beynəlxalq mandatına uyğun istifadənin vacibliyi qeyd edilib". Bunun mənası nədir?*

- Çox güman ki, birincisi, Paşinyan özü bəyanatda Minsk qrupunun potensial rolunun yer almasını istəyib. İkincisi, Rusiya çox güman ki, hələ də Fransa və ABŞ-la hansısa qarşılıqlı əlaqə imkanları pəncərəsini bağlamaq istəmir. Əslində, bu Minsk qrupu çoxdan ölüb. Və məhz Minsk Qrupunun sayəsində ABŞ və Fransa Qarabağ nizamlanmasında rəsmi statusa malikdir. Sabah ümumiyyətlə Minsk Qrupu olmasa, o zaman ABŞ və Fransanın bütün statusu havadan asılı qalacaq. Amma bu, Rusiyanın belə bir diplomatik yanaşmasıdır. Buna baxmayaraq, Minsk Qrupuna münasibətdə ikitərəfli bəyanatda humanitar problemlərin həllinə istinad var. Əslində, Moskva bundan əvvəl də dəfələrlə bəyan edib ki, həmsədrlər humanitar və digər ikinci dərəcəli məsələlərlə məşğul ola bilərlər. Onlar mütləq əsas heç nə etməyəcəklər. Beləliklə, prinsipcə bunlar ümumi formulalardır.

*- Bəyanatda Rusiya və Ermənistanın Rusiya Federasiyasına qarşı siyasi hücumlara ümumi reaksiyasının təsbit edilməsi diqqətəlayiqdir. Konkret olaraq, bu hücumların mənbəyi kimi Qərb tərəfdaşlarının adı çəkilmir, lakin bu, göz qabağındadır. Söhbət məhdudlaşdırıcı tədbirləri (sanksiyaları) pisləməkdən və beynəlxalq təhlükəsizliyin arxitekturasını pozmaqdan gedir. Rusiyanın ilin əvvəlində Qərb tərəfdaşlarına təhlükəsizlik zəmanətlərini müzakirə etməyi necə təklif etdiyini xatırlayırıq...*

- Və burada Rusiya-Ermənistan bəyanatında biolaboratoriyalar və üçüncü ölkələrin orada fəaliyyət göstərməsinin qeyri-mümkün olması ilə bağlı bir məqama diqqət yetirmək yerinə düşər. Və Ermənistanda rus dilinin təsirinin genişlənməsi ilə bağlı daha bir məqam. Bütün bunlar o deməkdir ki, Putin Paşinyana sadəcə olaraq aydın şəkildə başa salıb: onun Ermənistanın Qərblə daha da inteqrasiyası cəhdləri Rusiyanın ona kömək etməsini və ya Ermənistanın KTMT-də qalmasını mümkünsüz edir. Və bu baş verərsə, o zaman Ermənistan heç bir təhlükəsizlik zəmanəti olmadan qalacaq. Və seçim etmək vaxtıdır. Və Ermənistanın indiki beynəlxalq vəziyyətdə Rusiyanı dəstəkləməsinin təsdiqi də eyni kateqoriyadandır. O, Qərblə gələcək yaxınlaşmanın rədd edilməsini təsdiqləməlidir. Və gördüyünüz kimi, Paşinyan da bunu təsdiq etməli idi. Çünki Rusiya Ermənistana etibar etmir. Ermənistanın baş naziri, təbii ki, yellənməyə, bir neçə kresloda oturmağa davam edəcək. Amma birtəhər Rusiyaya öz hörmətini göstərməlisən. Moskva hesab edir ki, Ermənistan NATO ilə əməkdaşlıq mexanizmi vasitəsilə Amerika siyasətinin ekspeditoru kimi daha da irəli gedə bilər.



Rusiya çalışır ki, hər hansı yolla Ermənistan üzərində nəzarəti saxlasın, heç olmasa bir müddət orada gizlənən potensial təhlükəni- qərbçilik və revanşizmi neytrallaşdırsın. Ona görə də, Ermənistanda potensial pisliklərin ən zəifi kimi Paşinyanla danışıqlar aparılır.

Bütövlükdə, Ukraynadakı xüsusi əməliyyatla bağlı ona qarşı davam edən hücumlar fonunda Rusiya qonşu dövlətlərlə münasibətlərini gücləndirməyə, xüsusən də Cənubi Qafqazdakı məsələni yekun nizamlanmaya doğru aparmağa çalışır. Və hamısı sənədləşdirilib. Çünki Qərb, xüsusən də indi Rusiyanın mövqelərini zəiflətmək üçün Cənubi Qafqaza müdaxilə etməyə çalışır.

Müsahibə aldı - Nana Xoştariya

***Tərcümə etdi - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
26 aprel
2022-ci il

# Səudiyyə şahzadələri mülklərini satıblar



**Səudiyyə kral ailəsinin üzvləri vəliəhd şahzadə Məhəmməd bin Salman Əl Səudun maliyyə siyasətini sərtləşdirməsindən sonra gəlirlərin azalması fonunda son bir neçə ildə 600 milyon dollar dəyərində daşınmaz əmlak və dəbdəbəli mallar satıblar. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə nüfuzlu "The Wall Street Journal" nəşri məlumat yayıb.**

**Bildirilib ki, əvvəllər bəzi şahzadələr xəzinəyə daxil olan vəsaitdən ayda 30 milyon dollara qədər pul alırdılarsa, indi vəliəhd bir çox gəlir mənbələrinə çıxışı əngəlləyib. Belə ki, Məhəmməd bin Salman Əl Səud qohumlarına xaricdə tətil, su və elektrik haqqını dövlət hesabına ödəməyə icazə verməyi dayandırıb. Bundan əlavə, Səudiyyə hökuməti beşinci və ondan sonrakı ev işçilərinə görə 2 500 dollar cərimə ödənməsi barədə qərar çıxarıb. Bütün bu tədbirlər Səudiyyə Ərəbistanına bir neçə yüz milyon dollarlıq xərclərə qənaət etməyə imkan verir.**

**Nəşrin yazdığına görə, kral ailəsinin bəzi üzvlərinin qulluqçuları saxlamaq və çoxsaylı hesabları ödəmək üçün yetərincə vəsaiti yoxdur, digərləri isə vəliəhdin diqqətini həddindən artıq lüks yaşayışla cəlb etməmək üçün əmlakın bir hissəsindən qurtulmağa üstünlük verirlər.**

# Məhərrəm ayı nə vaxt başlayır?

**Bu il üçün Məhərrəm ayının başlanma tarixi açıqlanıb. SİA-nın Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) əldə etdiyi məlumata görə, Miladi təqvimi ilə iyulun 30-u Məhərrəm ayının ilk günüdür.**

Belə ki, Hicri-qəməri təqvimi ilə 1443-cü il başa çatır, yeni 1444-cü ilin başlanğıcı - Məhərrəm ayının 1-i iyulun 30-na təsadüf edir. Məhərrəm ayının 10-u - Aşura günü isə avqustun 8-nə düşür. Aşura günündə ənənəvi qanvermə aksiyaları keçirilir. Avqustun 28-i Məhərrəm ayı başa çatır, 29-dan isə Səfər ayı başlayır və sentyabrın 26-da başa çatacaq.

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının və səlahiyyətli nümayəndələri Məhərrəm ayının başlaması ilə əlaqədar vətəndaşlara müraciət edəcəklər.

Xatırladaq ki, Hicri təqviminin ilk iki ayında (Məhərrəm və Səfər ayları) Azərbaycanın əksər bölgələrində toy mərasimləri təxirə salınır. Məhəmməd peyğəmbərin (s) nəvəsi imam Hüseyn (ə), onun ailə üzvləri və tərəfdarları Hicri-qəməri təqvimi ilə 61-ci ildə Kərbəlada şəhid ediliblər.



**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə**

*elan edir*

Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar kafedrası
**Professor, elmlər doktoru**

Xor dirijorluğu kafedrası
**Baş müəllim**

Humanitar fənlər kafedrası
**Müəllim**

**"ŞİFAHİ, ƏNƏNƏLİ AZƏRBAYCAN PROFESSİONAL MUSİQİSİ VƏ ONUN YENİ İSTİQAMƏTLƏRİNİN TƏDQİQİ": ORQANOLOGİYA VƏ AKUSTİKA ELMİ LABORATORİYASI**
Böyük elmi işçi, fəlsəfə doktoru

***Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***

# Məktəblərdə rüşvət hallarına nə zaman SON QOYULACAQ?

## Təhsil eksperti danışdı

**"Təəssüf ki, son bir il ərzində orta ümumtəhsil müəssisələrində əsassız pul tələbləri kütləvi hal almağa başlayıb". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov bildirib.**

Onun sözlərinə görə, müvafiq təhsil idarə edən qurum məktəblərdə düzgün iş qurmur: "Eyni zamanda sanki artıq məktəblər təhsil nazirini saymayaraq özlərinin çirkin əməlləri ilə ölkədə həyata keçirilən təhsil standartlarını kölgəyə salmaq istəyirlər. Orta ümumtəhsil məktəblərində 2003-2020-ci illərdə aradan qalmış neqativlər çox təəssüflər olsun ki, son bir il ərzində ciddi şəkildə artmağa başlayıb. Hətta bu hal o qədər kütləviləşib ki, insanlar heç nədən çəkinmədən rahatlıqla kommunikasiya vasitələrindən istifadə edərək belə bir hərəkətə yol verirlər. Təbii ki, bu çox ciddi bir haldır. Cəzasızlıq və təhsilin yuxarı qurumunun fəaliyyətsizliyi nəticəsində bu proseslər həyata keçirilir. Hesab edirəm ki, orta ümumtəhsil sistemində dərs prosesində şəffaflıq və dərsin keyfiyyəti bir mənalı şəkildə təmin olunmalıdır".



***Banuçiçək Hüseynli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**